Biz həmin şərhin mənəvi və peşə etikası cəhətlərinə varmaq istəməzdik. Belə ki, onun ahəngi yüksək vəzifəli dövlət məmuruna, xüsusən də diplomata, sözsüz ki, yaraşmır. Buna baxmayaraq, biz Ermənistan xarici siyasət idarəsi başçısının müsahibəsində gen-bol yer almış böhtanları və yalan faktları nəzərdən qaçıra bilmərik.

Azərbaycan Dağlıq Qarabağ regionunun tarixi mənsubiyyəti barədə Ermənistanın əsassız və uydurma bəyanatlarına dəfələrlə tarixi dəlil-sübutlara əsaslanan cavablar vermişdir. Bu cür fikirlərə bir daha cavab verməyi lazım bilməyərək, nəzərə çarpdıraq ki, Ermənistandan fərqli olaraq, Azərbaycan uydurmalara deyil, faktlara əsaslanır və özünün haqlı olduğuna dair təkzibedilməz sübutları istənilən beynəlxalq səviyyədə təqdim etməyə hazırdır.

Ermənistan naziri Ki Uest danışıqlarını saxtalaşdırmağa növbəti dəfə cəhd göstərir və guya hər iki tərəfin razılaşdığı hansısa yeganə varianta – Qarabağın Azərbaycanın tərkibində olmayacağı barədə istinad edir.

Azərbaycan tərəfi dəfələrlə bəyan etmişdir və biz bu gün V.Oskanyana öz inadkarlığını tətbiq etməyə daha yaxşı yer tapmağı və Ki Uest danışıqları ilə bağlı oyunlara son qoymağı növbəti dəfə təklif edərək deyirik ki, Ki Uest görüşü nəticəsində heç bir razılaşma əldə olunmayıbdır. Təbii ki, bu görüşdə müəyyən təkliflər müzakirə edilmişdir. Lakin əgər müzakirə faktının özü Ermənistanın xarici işlər nazirini guya Azərbaycanın hansısa təkliflərlə razılaşdığı barədə adi məntiqdən uzaq olan bu cür fikir söyləməyə gətirib çıxarmışsa, onda biz hər hansı digər halda deyə bilərdik ki, bu, onun problemidir. Təəssüf ki, Ermənistan nazirinin artıq adi hal almış bu cür iddiaları danışıqlar prosesinə olduqca mənfi təsir göstərir.

O, Azərbaycanı danışıqların guya razılaşmalardan yayınan iştirakçısı kimi qələmə verməyə daim cəhd göstərərək, ölkəmizin nüfuzuna xələl gətirməyə can atır, halbuki məhz Ermənistan cəzasız qalaraq, əldə olunmuş razılaşmaları pozmaqda "qeyri-adi bacarıq" nümayiş etdirir.

1997-ci il oktyabrın 10-da Strasburqda Ermənistanın keçmiş prezidenti L.Ter-Petrosyan və Azərbaycanın lideri H.Əliyev münaqişənin mərhələli yanaşma əsasında həllinə dair həmsədrlərin təklifini qəbul etmişdilər. Bu təklifdə birinci mərhələdə işğalçı qüvvələrin Azərbaycan rayonlarının ərazisindən çıxarılması nəzərdə tutulurdu. Lakin Ermənistandakı radikal, militarist əhval-ruhiyyəli dairələrin buna reaksiyasını çox gözləmək lazım gəlmədi və onların təşkil etdikləri hərəkətlər nəticəsində və təzyiq qarşısında L.Ter-Petrosyan prezident vəzifəsindən uzaqlaşdırıldı, Strasburq bəyanatı isə "müvəffəqiyyətlə" gömüldü.

Biz nizamasalma prosesinin digər mərhələsini də xatırlayırıq. Həmin mərhələdə Ermənistan Prezidenti R.Koçaryan Ermənistan ərazisinin bir hissəsinin Azərbaycana verilməsinə dair variantdan istifadə edilməsinə prinsipial razılıq vermişdi. Amma sonra, bir

növ, gözlənilmədən, Ermənistan parlamentində deputatlar güllələndi və R.Koçaryan daxili siyasi vəziyyətin mürəkkəbləşdiyini bəhanə gətirərək, bu razılaşmadan uzaqlaşdı.

Məgər bu faktlar sübut deyilmi ki, danışıqlardakı bəyanatların ictimaiyyət üçün çıxışların məzmunu ilə uyğun gəlməməsi, günahı başqasında görmək, Azərbaycanı təqsirləndirməyə çalışmaq məhz Ermənistan tərəfi üçün səciyyəvidir?

Ermənistanın xarici işlər naziri öz müsahibəsində bildirir ki, Azərbaycan asan yolla getməyə çalışır, lakin biz hesab edirik ki, mərhələli nizamasalma asan yol deyildir, əksinə, yeganə mümkün və real yoldur. Azərbaycan öz torpağının bir qarışından da keçməyəcək və qələbə xülyası ilə öz başını gicəlləndirən Ermənistan tərəfi bilməlidir ki, baş vermiş fakt beynəlxalq hüququ təftiş etməyə əsas vermir, nə Azərbaycan dövləti, nə də bütün dünya birliyi dövlətin ərazisinin bir hissəsinin işğalını tanımayacaqdır. Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü, habelə beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazilər əldə etmək üçün güc tətbiqinin yolverilməzliyini təsdiqləyən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi məgər buna kifayət qədər inandırıcı misal deyilmi? Münaqişənin nizama salınması prinsipləri barədə ATƏT-in o vaxtkı sədrinin 1996-cı ildə ATƏT-in Lissabon zirvə toplantısında verdiyi bəyanatı da xatırlamamaq olmaz. Bu bəyanatı təklikdə qalan Ermənistan istisna olmaqla, ATƏT-in bütün üzvləri dəstəkləmişdilər. Dünya dövlətləri liderlərinin və beynəlxalq təşkilatların nümayəndələrinin indiki bəyanatları növbəti dəfə aydın nümayiş etdirir ki, dünya birliyi öz mövqeyində və hərəkətlərində ardıcıldır.

Azərbaycan Respublikası münaqişənin beynəlxalq hüquq normalarına və prinsiplərinə riayət olunması əsasında nizama salınması mövqeyini qətiyyətlə və ardıcıl şəkildə müdafiə edir. Biz, Ermənistan nazirinin iddia etdiyi kimi, Qarabağ məsələsinin həllinin başqa vaxta keçirilməsinin və bunun gələcək nəsillərə saxlanılmasının tərəfdarı deyilik, əksinə, ona tərəfdarıq ki, azərbaycanlıların və ermənilərin elə indiki nəsli Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağ bölgəsində dinc qonşuluq şəraitində yaşasın və qabaqcıl demokratiyaların müvafiq hüquq normalarına əsaslanaraq, müstəqilliyin müəyyən səviyyəsinə malik olsun.

Biz bir daha xatırladırıq ki, Dağlıq Qarabağ ərazisi kompromis obyekti ola bilməz, o, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir. Lakin bölgənin statusu ilə bağlı kompromis axtarışlarından danışmaq lazımdır. Burada biz yeni heç bir şey irəli sürmürük, sərəncamımızda özünüidarənin zəngin və faydalı Avropa təcrübəsi var. Başqa cür yanaşma heç də təkcə çoxmillətli Cənubi Qafqaz üçün deyil, digər regionlar üçün də nəticələrini əvvəlcədən söyləmək çətin olan təhlükəli meyillərə təhrik edir.

Cənab V.Oskanyanı bu sonuncu nəzakətsiz bəyanat verməyə vadar edən səbəbləri başa düşməyə çalışaraq, çox böyük əminliklə güman edə bilərik ki, mümkün şəxsi və daxili siyasi səbəblərlə yanaşı, bu bəyanatın arxasında Praqa görüşlərində əldə olunmuş müəyyən irəliləyişləri pozmaq məqsədi durur. Bizə isə ancaq təəssüflənmək qalır ki, cənab V.Oskanyan bu bəyanatı ilə tərəfləri qarşılıqlı ittihamlara sürükləməyə çalışır, halbuki onun özü elə bu müsahibəsində konstruktivlikdən danışır.

**«AzərTAc» 14.10.04**

## *Azərbaycan Praqa görüşləri zamanı əldə edilmiş irəliləyişləri pozmaq üçün Ermənistan tərəfinin göstərdiyi aşkar cəhdlərdən narahat olduğunu bildirir*

Azərbaycan onun işğal olunmuş ərazilərində Ermənistanın həyata keçirdiyi əməllərdən dərin narahatlıq hissi keçirdiyini dəfələrlə bildirmişdir. Ermənistan tərəfi öz əməllərini gizlətməyərək, qanunsuz yaşayış məskənləri yaradılması, təbii sərvətlərin istismarı və

digər hallar da daxil olmaqla, bu əməllərin həyata keçirilidiyini riyakarcasına bəyan edir.

Azərbaycan bütün bunları ən yüksək səviyyədə dəfələrlə bəyan etmişdir. Bu faktlar Azərbaycan Respublikası Prezidentinin BMT Baş Məclisinin 59-cu sessiyasında çıxışında, habelə Azərbaycan Respublikası xarici işlər nazirinin öz həmkarlarına müvafiq məktublarında açıqlanmışdır. Həmin çıxışda və məktublarda beynəlxalq birliyin diqqəti yaranmış vəziyyətə cəlb olunmuşdur. Bu vəziyyət isə nəinki hüquqa zidd olduğundan qeyri-məqbuldur, həm də son dərəcə təhlükəlidir, çünki münaqişənin nizama salınması prosesi baxımından çox pis nəticələrə gətirib çıxara bilər.

Azərbaycan, əvvəllər olduğu kimi, yenə də münaqişənin beynəlxalq hüquq normaları və prinsipləri əsasında sülh yolu ilə həll olunması imkanlarından tamamilə istifadə etmək niyyətindədir və danışıqları ATƏT-in Minsk prosesi çərçivəsində davam etdirmək xətti götürmüşdür.

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Praqada keçirilmiş dörd görüşünün faydalı olduğunu Azərbaycan artıq qeyd etmişdir və Praqada növbəti görüşün təxirə salınmasından təəssüfləndiyini bildirmişdir. Məlum olduğu kimi, bu görüş ilk dörd görüşün nəticələrini araşdırmaq və onların üzərində düşünmək ehtiyacı ilə əlaqədar Ermənistanın xahişinə əsasən təxirə salınmışdır.

Azərbaycan Praqa görüşləri zamanı əldə edilmiş irəliləyişləri pozmaq üçün Ermənistan tərəfinin göstərdiyi aşkar cəhdlərdən narahat olduğunu bildirir. Bu cəhdlər baş verən hadisələrin mahiyyətini və qiymətləndirilməsini ənənəvi olaraq saxtalaşdıran və təhrif edən Ermənistan rəhbərliyinin bəyanatlarında aydın görünür.

Minsk prosesinin səmərəli surətdə davam etdirilməsində maraqlı olan və işğal edilmiş ərazilərdə Ermənistanın həyata keçirdiyi əməllərin – danışıqlara mənfi təsir göstərən və Cenevrə konvensiyalarına zidd olan əməllərin qarşısının alınması məqsədi ilə Azərbaycan Respublikası "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət haqqında" bəndin BMT Baş Məclisi 59-cu sessiyasının gündəliyinə daxil edilməsi təşəbbüsünü irəli sürmüşdür. Həmin təşəbbüsdən məqsəd bütün dünya birliyi üçün qeyri-məqbul və yolverilməz olan bu vəziyyətin BMT-də müzakirə edilməsidir.

Ermənistan tərəfinin növbəti iftiralarını qabaqcadan görərək, bildirək ki, Azərbaycan danışıqların Minsk prosesi çərçivəsində davam etdirilməsinə tərəfdardır və münaqişənin nizama salınmasını başqa məcraya yönəltmir.

Azərbaycan Ermənistan tərəfinin nizamasalmanın nəticəsini işğal olunmuş ərazilərdə hüquqa zidd əməllər yolu ilə əvvəlcədən müəyyənləşdirmək cəhdlərinin qarşısını almağa çalışır və bu işdə BMT-nin və bütün beynəlxalq birliyin dəstəyinə ümid bəsləyir.

Uzunmüddətli sülh özbaşınalıq və tarixi saxtalaşdırmaq əsasında deyil, ancaq hüquq və ədalət prinsiplərinin sağlam bünövrəsi üzərində yaradıla bilər.

**«AzərTAc» 20.10.04**

## 2004-cü İLDƏKİ DİPLOMATİK FƏALİYYƏTİN YEKUNLARI: Azərbaycanın xarici siyasəti ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi xəttindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə yönəldilmişdir

Başa çatan 2004-cü ildə Azərbaycan Respublikasının xarici siyasi fəaliyyəti ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi üzrə dövlətin siyasi xəttinin əsasını təşkil edən məqsəd və vəzifələrə nail olmağa yönəldilmiş səylərin ardıcıllığı və gücləndirilməsi əlaməti altında keçmişdir. Ölkə Prezidenti İlham Əliyev iyulun 27-də respublikamızın diplomatik nümayəndəliklərinin rəhbərləri ilə keçirilən görüşdəki çıxışında bu xəttin dəyişməz olduğunu təsdiqləmiş, dövlətin xarici siyasət idarəsinin işini təhlil etmiş və bu işə qiymət vermiş, onun gələcək fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirmişdir.

Dövlətin və onun vətəndaşlarının təhlükəsizliyinin diplomatik vasitələrlə təmin edilməsinə kömək göstərilməsi xarici siyasətin ümdə vəzifəsi kimi qalmışdır. Bu baxımdan Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə riayət edilməsi əsasında aradan qaldırılması öncül məsələdir. Azərbaycan beynəlxalq birliyin köməyi ilə münaqişənin dincliklə həlli imkanlarından maksimum bəhrələnmək niyyətini açıq şəkildə nümayiş etdirmişdir. Bu mövqe 2004-cü il sentyabrın 23-də BMT Baş Məclisinin 59-cu sessiyasında Prezident İlham Əliyevin çıxışında aydın ifadə olunmuşdur.

2004-cü il Azərbaycanın və Ermənistanın dövlət başçıları və xarici işlər nazirləri səviyyəsində görüşlərin fəallaşması ilə əlamətdar olmuşdur. Bu görüşlər danışıqlar prosesinin davam etdirilməsinin və gələn il ərzində ilk irəliləyişlərə nail olmağın mümkünlüyünün əsasını qoymuşdur.

Bununla yanaşı, beynəlxalq humanitar hüququn müvafiq normaları pozularaq, işğal olunmuş ərazilərin məskunlaşdırılması ilə bağlı çox ciddi problem danışıqları çətinləşdirmişdir. Bu problem münaqişənin dincliklə nizama salınmasının əsaslarını sarsıdır. Belə bir şəraitdə, Ermənistan tərəfinin məskunlaşdırma praktikasını həyata keçirdiyinə dair təkzibedilməz sübutlara malik olan Azərbaycan kömək üçün beynəlxalq birliyə müraciət etmişdir. Bunun nəticəsində BMT Baş Məclisi “Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət” məsələsini özünün 59-cu sessiyasının gündəliyinə 163-cü bənd kimi daxil etmişdir. Həmin bəndin müzakirəsi çərçivəsində nümayəndə heyətimiz tərəfindən təqdim olunan eyniadlı qətnamənin layihəsi yayılmışdır.

Bu məsələnin müzakirəsinə başlanmasının əsasını qoyan Azərbaycanın xarici işlər nazirinin 2004-cü il noyabrın 23-də BMT Baş Məclisindəki çıxışından və ATƏT-in Minsk qrupunun həmsədrləri və Ermənistanın xarici siyasət idarəsinin başçısı ilə Berlin, Sofiya və Brüsseldəki bir sıra görüşlərdən sonra 2005-ci ildə danışıqların Praqa görüşləri əsasında davam etdirilməsi və qanunsuz məskunlaşdırmaya dair faktoloji hesabat hazırlamaq məqsədi ilə faktların müəyyənləşdirilməsi üçün yanvar-fevralda ATƏT-in nümayəndə heyətinin işğal olunmuş ərazilərə göndərilməsi haqqında razılaşma əldə edilmişdir.

Ümumiyyətlə, münaqişə və onun həlli ilə bağlı məsələlər 2004-cü ildə təkcə BMT və ATƏT-in deyil, digər beynəlxalq təşkilatların da diqqət yetirdikləri mövzu olmuşdur. Bu baxımdan həmin məsələlərə Avropa Şurasının Parlament Assambleyasında baxılmasını qeyd etmək lazımdır. Bu çərçivədə AŞPA məruzəçiləri T.Devis və onu bu vəzifədə

əvəzləyən D.Atkinson Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair məruzə və təkliflər təqdim etmişlər.

XİN və Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri azərbaycanlı qaçqınların və məcburi köçkünlərin ağır vəziyyətinin yüngülləşdirilməsi istiqamətində müvafiq beynəlxalq formatlar çərçivəsində lazımi səylər göstərilməsini davam etdirmişlər. Bununla əlaqədar BMT-nin qaçqınların işləri üzrə Ali komissarı R.Lübbersin Azərbaycana səfərini qeyd etmək lazımdır. Dövlət başçısının və digər rəsmi şəxslərin onunla görüşləri, məcburi köçkünlərin Bərdə və Biləsuvarda müvəqqəti məskunlaşdıqları yerlərə səfəri Azərbaycanda humanitar problemin həllinə kömək üçün Ali Komissarlıq tərəfindən müvafiq tədbirlər görülməsinə yönəldilmişdir.

2004-cü ildə Azərbaycan BMT-nin müxtəlif orqanlarında öz aktiv fəaliyyətini davam etdirərək, diqqəti beynəlxalq humanitar hüququn norma və prinsiplərinin pozulması ilə bağlı kəskin problemlər üzərində cəmləşdirmişdir. Məsələn, Azərbaycan nümayəndə heyətinin səyləri sayəsində həmin orqanlarda münaqişələrin gedişində girov götürülmüş qadın və uşaqların, itkin düşmüş şəxslərin vəziyyəti ilə bağlı məsələlər haqqında qətnamələr qəbul edilmişdir.

BMT-nin seçkili strukturlarında Azərbaycanın daha yaxşı təmsil olunmasını təmin etmək üçün uğurlu iş aparılmışdır. Məsələn, Azərbaycanın BMT yanındakı daimi nümayəndəsi onun iki əsas orqanının – Baş Məclisin, İqtisadi və Sosial Şuranın vitse-prezidenti seçilmişdir.

Azərbaycan Avropa və Avratlantik inteqrasiyası istiqamətində irəliləyərək, NATO və Avropa Birliyi ilə əməkdaşlığı genişləndirmişdir. Prezident İlham Əliyev Bratislavada, Strasburq və Brüsseldəki proqram çıxışlarında Azərbaycanın Avropa dəyərlərinə sadiqliyini və Avropada təhlükəsizliyin, azad bazar və demokratiyanın vahid məkanına daxil olmağa yönəldilmiş siyasi xəttin dəyişməzliyini təsdiq etmişdir.

2004-cü ilin mayında NATO qərargahında Azərbaycan Prezidenti NATO-nun təcrübəsindən və Alyansla inteqrasiya səviyyəsində qarşılıqlı fəaliyyət imkanlarından istifadə etməklə, təhlükəsizlik strukturunun inkişafına yönəldilmiş Fərdi tərəfdaşlıq planını təqdim etmişdir. Azərbaycan dövləti başçısının 2004-cü ilin iyununda NATO-nun İstanbul zirvə toplantısında iştirakını və çıxışını, habelə NATO-nun baş katibi Yaap de Hoop Sxefferin noyabrda Azərbaycana səfəri zamanı əməkdaşlığın bir sıra mühüm məsələlərinin onunla müzakirəsini də qeyd etmək lazımdır. NATO ilə əməkdaşlığın inkişaf etdirilməsi və tərəfdaşlıq planının həyata keçirilməsi məsələləri NATO ilə əməkdaşlıq üzrə Azərbaycanın hökumət komissiyası çərçivəsində və milli təhlükəsizlik konsepsiyasının və digər doktrinal sənədlərin işlənib hazırlanması üçün Prezidentin sərəncamı ilə 2004-cü ildə yaradılan idarələrarası işçi qrupu çərçivəsində ən fəal surətdə nəzərdən keçirilir və təkmilləşdirilir.

Avropa Birliyi ilə tərəfdaşlığı inkişaf etdirmək və ona daha da yaxınlaşmaq kontekstində, Azərbaycanın AB-nin "Yeni qonşuluq" proqramına daxil olunmasının böyük əhəmiyyəti var. Belə ki, bu proqramda AB-nin üzvləri ilə daha sıx və dərin münasibətlər qurulması, iqtisadiyyat, ticarət, energetika və nəqliyyat sahəsində ümumi məkanlar yaradılması nəzərdə tutulur.

Azərbaycan Avropa Şurasına qoşularkən öz üzərinə götürdüyü öhdəlikləri bu il yerinə yetirərək, bu təşkilatda mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirmiş və onun strukturlarında, o cümlədən Nazirlər Komitəsində, Parlament Assambleyasında, Avropanın Yerli və Regional Hakimiyyətlər Konqresində, digər qurumlarda fəaliyyətin keyfiyyətcə yeni səviyyəsinə keçmişdir.

İslam dünyasının bir hissəsi olan Azərbaycan Avropa istiqaməti ilə yanaşı, İslam Konfransı Təşkilatı (İKT) ilə də sıx əməkdaşlığı genişləndirir, onun fəaliyyətində yaxından

iştirak edir. İKT ölkələri xarici işlər nazirlərinin iyunda keçirilən 31-ci konfransında təşkilat erməni təcavüzünü yenə də pisləmiş, öz prinsipial mövqeyini və Azərbaycanla həmrəyliyini bir daha təsdiqləmişdir. Azərbaycan İKT ölkələrinin vətəndaş cəmiyyətləri arasında dialoqun inkişafına töhfə verərək, İslam dövlətlərinin gənclər forumunu yaratmaq təşəbbüsünü irəli sürmüş, dekabrda Bakıda onun təsis yığıncağı keçirilmişdir.

Azərbaycan qloballaşma şəraitində beynəlxalq ticarət-iqtisadi və kommunikasiya əlaqələri sistemində öz layiqli yerini tutmağa və möhkəmləndirməyə çalışaraq, Dünya Ticarət Təşkilatına daxil olmaq məsələsinə dair danışıqlar prosesini il ərzində davam etdirmiş, Dünya Poçt İttifaqının sentyabrda Buxarestdə keçirilən 23-cü konqresində prinsipial qərarlar çıxarılmasına nail olmuş, habelə noyabrda Bakıda Kommunikasiya texnologiyalarına dair ümumdünya konfransı keçirmişdir.

Azərbaycan regional təşkilatlar çərçivəsində aktiv fəaliyyət göstərmişdir. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında ölkəmizin sədrliyi dövründə Azərbaycan QDİƏT ölkələri arasında əməkdaşlığın daha da genişlənməsinə yönəldilmiş bir sıra təşəbbüslər irəli sürmüş, habelə nazirlərin dörd görüşünə ev sahibliyi etmişdir. Azərbaycan nümayəndəsi bu beynəlxalq təşkilatın Baş katibinin müavini seçilmişdir. GUÖAM dövlətləri arasında əməkdaşlığın, o cümlədən ticarət və nəqliyyat, hüquq mühafizə orqanlarının qarşılıqlı fəaliyyəti, GUÖAM ölkələrinin ərazilərindən və ümumən, Avratlantik regionundan keçən nəqliyyat dəhlizlərinin səmərəli və təhlükəsiz işləməsinə kömək göstərilməsinə yönəldilmiş müştərək analitik informasiya infrastrukturu yaradılması sahəsində layihələrin həyata keçirilməsində əməkdaşlığın daha da genişlənməsini qeyd etmək lazımdır.

2004-cü ildə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi və möhkəmləndirilməsi cəhətdən dövlət və hökumət başçıları, parlament rəhbərləri və xarici işlər nazirləri səviyyəsində çoxsaylı qarşılıqlı səfərlər olmuş, birgə hökumətlərarası komissiyaların və işçi qruplarının iclasları keçirilmiş, bunların gedişində qarşılıqlı maraq doğuran geniş əhatəli məsələlər barədə fikir mübadiləsi aparılmış və əməkdaşlığın müqavilə-hüquqi bazasının genişləndirilməsi prosesi davam etdirilmişdir. İl ərzində Azərbaycan Macarıstan, Yunanıstan, Hindistan, Kanada, Küveyt, Polşa və İsveçrədə səfirliklərini, habelə İranda (Təbriz), Rusiyada (Sankt-Peterburq) və Türkiyədə (Qars) baş konsulluqlarını açmışdır.

Yola saldığımız ildə ölkənin xarici siyasət idarəsinin rəhbər heyəti dəyişdirilmiş və möhkəmləndirilmişdir. XİN kadr idarəçiliyi sistemini inkişaf etdirmək və diplomatların peşəkarlıq səviyyəsini yüksəltmək, diplomatik nümayəndəliklərin rəhbərləri və əməkdaşlarının rotasiyası praktikasının səmərəli tətbiqi, Nazirliyin infrastrukturunun təkmilləşdirilməsinə dair BMT-nin İnkişaf Proqramı ilə müştərək layihələri həyata keçirmək, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun inkişafı baxımından normativ-hüquqi bazanın işlənib hazırlanması xətti götürmüşdür.

Azərbaycan Respublikasının xarici işlər nazirliyi dövlətimizin beynəlxalq nüfuzunun möhkəmlənməsinə, onun təhlükəsizliyinin, sabit inkişafının təmin olunmasına və ölkə vətəndaşlarının mənafelərinin qorunmasına yönəldilmiş fəaliyyətini bundan sonra da davam etdirəcəkdir.

**XİN-in 30.12.04 tarixli məlumatı**

# BƏYANATLAR

## Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi mətbuat mərkəzinin bəyanatı

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat mərkəzi ABŞ-da keçirilən prezident seçkiləri ilə bağlı bəyanat qəbul etmişdir. Bəyanatda deyilir:

"Məlum olduğu kimi, bu il noyabr ayının 2-də Amerika Birləşmiş Ştatlarında keçirilmiş prezident seçkilərində Prezident cənab Corc Buş qələbə qazanmışdır.

Son illər ABŞ ilə Azərbaycan arasında əlaqələrin yeni mərhələsi qurulmuşdur. Bədnam 907-ci düzəlişin qüvvəsi dayandırıldıqdan sonra ABŞ Azərbaycana yardımlar göstərmiş və bu yardımlar nəticəsində ölkəmizdə müxtəlif layihələr həyata keçirilmişdir. Hazırda ABŞ-ın yaxından iştirakı və siyasi dəstəyi ilə Xəzərdə neft hasilatı və Bakı-Tbilisi-Ceyhan kimi iri neft kəmərinin tikintisi davam etdirilməkdədir. 2001-ci ilin məlum 11 sentyabr hadisəsindən sonra Azərbaycan Amerika Birləşmiş Ştatlarının yaxın tərəfdaşı kimi terrorizmə qarşı mübarizədə onunla birgə iştirak edir.

Azərbaycan Respublikası ümidvardır ki, aparılan siyasət ABŞ-da keçirilmiş prezident seçkilərindən sonra da davam etdiriləcək, ABŞ administrasiyasının səyləri nəticəsində Amerika-Azərbaycan münasibətləri çərçivəsində əldə olunmuş nailiyyətlər möhkəmlənəcək, strateji tərəfdaşlıq əlaqələri yeni səviyyəyə qaldırılacaqdır.

Azərbaycan Respublikası, həmçinin əmin olmaq istəyir ki, ABŞ bundan sonra Cənubi Qafqaz regionunda problemlərin aradan qaldırılmasında, sülhün, təhlükəsizliyin bərqərar olunmasında, ilk növbədə isə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində səylərini artıracaqdır".

**"AzərTAc" 05.11.04**

# BRİFİNQLƏR

**1. Nazir müavini V.Sadıqov**

Mövzu – oktyabrın 22-də Alma-Atada keçirilmiş Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQETM) üzv dövlətlərin xarici işlər nazirlərinin növbəti görüşünə dair

Tarix – 29 oktyabr

**2. Nazir müavini X.Xələfov**

Mövzu – Xəzərin hüquqi statusu

Tarix – 6 noyabr

**3. Nazir müavini A.Əzimov**

Mövzu – BMT-nin Baş Məclisinin 59-cu sessiyası gündəliyinin "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətlə bağlı" adlı bəndinin (163 nömrəli) müzakirəsi

Tarix – 27 noyabr

**4. Nazir müavini A.Əzimov**

Mövzu – Sofiyada ATƏT-in Nazirlər Şurasının 12-ci iclasında və Brüsseldə NATO-nun Avro-Atlantika Tərəfdaşlıq Şurasının Nazirlərin görüşündə xarici işlər naziri E.Məmmədyarovun başçılıq etdiyi heyətin iştirakına dair

Tarix – 11 dekabr

**5. Nazir müavini M.Məmməd-Quliyev**
Mövzu – Azərbaycanın iqtisadi sahədə inkişafında XİN-in rolu
Tarix – 15 dekabr

Həmçinin, 24 sentyabr, 7 oktyabr, 15 oktyabr XİN-in Mətbuat Mərkəzinin rəhbəri M.Mirzə tərəfindən brifinqlər keçirilmişdir.

**XIN-in Mətbuat Mərkəzinin məlumatı**

# TƏDBİRLƏR

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat mərkəzindən AzərTAc-a bildirmişlər ki, Azərbaycan Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti sahəsində işçi qrupu yaradılmışdır. Respublikanın bütün əlaqədar qurumlarının yüksək səviyyəli nümayəndələrinin daxil olduqları bu qrupun qarşısında milli təhlükəsizlik konsepsiyası, xarici siyasət strategiyası, hərbi doktrina və digər konseptual sənədlərin hazırlanması kimi mühüm vəzifələr qoyulmuşdur. Qrupun fəaliyyətinin əlaqələndirilməsi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə həvalə edilmişdir.

İşçi qrupunun nazirlikdə keçirilən ilk iclasında qrupun fəaliyyətinin perspektivləri, əsasnaməsinin hazırlanması və digər məsələlər müzakirə olunmuşdur.

Qrupun üzvləri Prezidentin Sərəncamını ölkəmizdə uğurla həyata keçirilən demokratik, hüquqi dövlət quruculuğu prosesində mühüm addım kimi qiymətləndirmişlər. İclasda Avratlantika məkanının siyasi və təhlükəsizlik strukturlarına inteqrasiya yolunu seçmiş ölkəmizin təhlükəsizlik sektorunun islahatı istiqamətində həyata keçirdiyi siyasətin ardıcıl şəkildə davam etdirilməsinə dair məsələlər müzakirə olunmuşdur. Azərbaycanın NATO-nun fərdi tərəfdaşlıq üzrə əməliyyat planına qoşulması bu baxımdan xüsusilə vurğulanmışdır.

İclasda xarici dövlətlərin təhlükəsizlik sektorunun islahatı və idarə edilməsi sahəsində təcrübələrinin öyrənilməsinin və ekspertlər mübadiləsinin, xüsusilə Almaniya Federativ Respublikası ilə bu sahədə aparılan əməkdaşlığın əhəmiyyəti qeyd edilmişdir.

Milli təhlükəsizlik məsələləri üzrə qurumlararası əməkdaşlığın təkmilləşdirilməsinə dair məsələlər də müzakirə edilmiş, işçi qrupunun fəaliyyətinin təşkilati tərəfləri ilə bağlı bir sıra qərarlar qəbul olunmuşdur.

**«AzərTAc» 02.10.04**

2004-cü ilin oktyabr ayının 22-də Xarici İşlər Nazirliyinin təlim-tədris mərkəzində "Daimi Arbitraj Məhkəməsi" mövzusunda mühazirə keçirilmişdir. XİN əməkdaşlarının iştirak etdiyi bu tədbirdə qərargahı Haaqada yerləşən Daimi Arbitraj Məhkəməsinin baş katibi T.van den Hout çıxış etmiş və iştirakçıların suallarına cavab vermişdir.

**XİN-in 22.10.04 tarixli məlumatı**

2004-cü ilin oktyabr ayının 22-də Xarici İşlər Nazirliyinin təlim-tədris mərkəzində «Müasir Beynəlxalq Cinayətlərin Təqibi Problemləri» mövzusunda mühazirə keçirilmişdir. XİN əməkdaşlarının iştirak etdiyi bu tədbirdə Milli Məclis Aparatının İnzibati və Hərbi Qanunvericilik şöbəsinin müdiri Nizami Səfərov çıxış etmiş və iştirakçıların suallarına cavab vermişdir.

**XİN-in 22.10.04 tarixli məlumatı**

2004-cü ilin 26 oktyabr tarixində AR XİN-də Koreya Respublikası Xarici İşlər və Ticarət Nazirliyi Avropa Məsələləri İdarəsi Baş direktorunun müavini Lee Byung-huanın başçılıq etdiyi nümayəndə heyəti ilə Azərbaycan – Cənubi Koreya 1-ci siyasi dialoqu keçirilmişdir.

Dialoqu Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini M.Məmməd-Quliyev açmışdır. Dialoq zamanı iki ölkə arasında siyasi, iqtisadi münasibətlərin, humanitar, mədəniyyət, elm və təhsil sahələrində, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsi, XİN-lərarası məsləhətləşmələrin davam etdirilməsi məsələləri geniş müzakirə olunmuş, Cənubi Qafqaz və Koreya Yarımadasındakı vəziyyətə dair məlumat və fikir mübadiləsi aparılmışdır.

Həmçinin dialoq zamanı Koreya tərəfi 2004-cü ilin sonuna qədər Koreya Respublikası tərəfindən Azərbaycan Respublukasında fəxri konsul təyin olunması məsələsinin həll olunacağını bildirmişdir.

**XİN-in 27.10.04 tarixli məlumatı**

Noyabrın 18-20-də Bakıda Azərbaycan Respublikası ilə NATO arasındakı Fərdi Tərəfdaşlıq Fəaliyyəti Planı (FTFP) üzrə Xarici İşlər Nazirliyi və Marşall Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycana bu planı həyata keçirmək prosesində yardım göstərmək üçün seminar keçirilmişdir.

Seminarda Fərdi Tərəfdaşlıq Fəaliyyəti Planının yerinə yetirilməsi üçün Azərbaycan Respublikası Milli Təhlükəsizlik üzrə İdarələrarası İşçi Qrupunun üzvləri arasında təhlükəsizlik konsepsiyasının və strategiyasının, birgə əməkdaşlığın və konsensus yaradılmasının inkişaf etdirilməsi məsələsi müzakirə olunmuşdur.

Tədbirdə Azərbaycan Respublikası Milli Təhlükəsizlik üzrə İdarələrarası İşçi Qrupunun üzvləri, NATO-nun Təhlükəsizlik və Planlaşdırma Siyasəti üzrə Beynəlxalq Qərargahının, ABŞ qoşunlarının Avropa komandanlığının, ABŞ müdafiə nazirinin aparatının və Marşall Mərkəzinin nümayəndələri iştirak etmişlər.

**«AzərTAc» 20.11.04**

Dekabrın 16-17-də Xarici İşlər Nazirliyində Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən beynəlxalq humanitar hüquq üzrə kurs təşkil edilmişdir. Xarici İşlər Nazirliyinin təşəbbüsü əsasında keçirilən kursun məqsədi ölkəmizin müvafiq dövlət orqanlarının nümayəndələrinin beynəlxalq humanitar hüquq, Beynəlxalq Qırmızı Xaç Komitəsi haqqında biliklərinin artırılmasından, fikir mübadiləsi və müvafiq təcrübənin bölüşdürülməsindən ibarət idi. Sözügedən tədbirdə Azərbaycan Respublikasının Milli Məclisi Aparatının, Xarici İşlər və Ədliyyə Nazirliklərinin, eləcə də Konstitusiya Məhkəməsinin gənc əməkdaşları iştirak etmişlər.

**XİN-in 18.12.04 tarixli məlumatı**

2004-cü ilin dekabr ayının 28-də Xarici İşlər Nazirliyinin təlim-tədris mərkəzində "Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı ermənilər tərəfindən törədilmiş cinayətlərin təqibi və pozulmuş hüquqların bərpası imkanları" mövzusunda dəyirmi masa keçirilmişdir. Nazir müavini Araz Əzimovun sədrlik etdiyi bu tədbirdə tanınmış hüquqşunaslar, dövlət qurumlarının nümayəndələri və XİN-in əməkdaşları arasında fikir mübadiləsi aparılmışdır.

**XİN-in 28.12.04 tarixli məlumatı**

# YENİ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİN TƏSİS EDİLMƏSİ, TƏYİNATLAR VƏ GERİ ÇAĞIRILMA

## *İ.H.VƏKİLOVUN AZƏRBAYCAN RESPUBLİKASININ MİSİR ƏRƏB RESPUBLİKASINDA, EYNİ ZAMANDA LİVAN RESPUBLİKASINDA VƏ SURİYA ƏRƏB RESPUBLİKASINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ VƏZİFƏSİNDƏN GERİ ÇAĞIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İsrafil Hacı oğlu Vəkilov Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında, eyni zamanda Livan Respublikasında və Suriya Ərəb Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 oktyabr 2004-cü il.**

## *F.N. BAĞIROVA AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ DƏRƏCƏSİ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

“Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Faiq Nüsrət oğlu Bağırova Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 oktyabr 2004-cü il.**

## *F.N.BAĞIROVUN AZƏRBAYCAN RESPUBLİKASININ MİSİR ƏRƏB RESPUBLİKASINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Faiq Nüsrət oğlu Bağırov Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 oktyabr 2004-cü il.**



## Faiq Bağırov

***Tərcümeyi-hal***

| | |
|---|---|
| **Doğulduğu il:** | 1962, Bakı, Azərbaycan |
| **Təhsil:** | Azərbaycan Dövlət Universiteti, şərqşünaslıq fakültəsi, ərəb dili bölməsi, 1979-1985 |
| **Diplomatik rütbəsi:** | Fövqəladə və səlahiyyətli səfir |
| **1983-1984 -** | Hərbi tərcüməçi – dil təcrübəsi, Liviya Ərəb Xalq Sosialist Camahirriyyası |
| **1985-1987 -** | Hərbi xidmət, Liviya Ərəb Xalq Sosialist Camahirriyyası |
| **1987-1989 -** | Azərbaycan Respublikasının Xarici Tələbələrlə İş üzrə Şurası, baş mütəxəssis |
| **1989-1991 -** | Xaricdə yaşayan həmvətənlərlə mədəni əlaqələr Cəmiyyəti - "Vətən" Cəmiyyəti, referent, şöbə müdiri |
| **1991-1996 -** | Xarici İşlər Nazirliyi, ikinci katib, birinci katib, şöbə müdiri |
| **1996-2000 -** | Azərbaycan Respublikasmın Türkiyədəki Səfirliyi, birinci katib -konsulluq şöbəsinin müdiri |
| **2000-2002 -** | Xarici İşlər Nazirliyi, müşavir |
| **2002-2004 -** | Xarici İşlər Nazirliyi, idarə rəisinin müavini |
| **2004-cü ildən etibarən -** | Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri |
| **Xarici dillər -** | Ərəb, türk, rus, ingilis |
| **Ailə vəziyyəti -** | Evlidir, 2 övladı var. |

## *K.T.XASİYEVƏ AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ DƏRƏCƏSİ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Kamil Tacid oğlu Xasiyevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 oktyabr 2004-cü il.**

## *K.T.XASİYEVİN KİMYƏVİ SİLAHLARIN QADAĞAN OLUNMASI ÜZRƏ TƏŞKİLATDA AZƏRBAYCAN RESPUBLİKASININ DAİMİ NÜMAYƏNDƏSİ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Kamil Tacid oğlu Xasiyev Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatda Azərbaycan Respublikasının daimi nümayəndəsi təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 oktyabr 2004-cü il.**

## *K.T.XASİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ NATO YANİNDA NÜMAYƏNDƏLİYİNİN BAŞÇISI TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu madəssinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Kamil Tacid oğlu Xasiyev Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 oktyabr 2004-cü il.**



# Kamil Xasiyev

***Tərcümeyi-hal***

| | |
|---|---|
| **Doğulduğu il:** | 1968, Bakı, Azərbaycan |
| **Təhsil:** | Hərbi İnstitut, şərqşünaslıq fakültəsi, Moskva şəhəri, 1985-1990 |
| **Diplomatik rütbəsi:** | Fövqəladə və səlahiyyətli səfir |
| **1990-1991 -** | Tərcüməçi, Hərbi Müşavirin Aparatı, SSRİ-nin hərbi missiyası, Həbəşistan |
| **1991-1992 -** | Baş tərcüməçi-referent, xarici tələbələr üçün Hava Hücumundan Müdafiə Kursları |
| **1993 -** | Xarici İşlər Nazirliyi , Avropa Ölkələri İdarəsi, attaşe, |
| **1993-1995 -** | Xarici İşlər Nazirliyi, Beynəlxalq Təşkilatlar İdarəsi, üçüncü katib |
| **1995-1998 -** | Azərbaycan Respublikasının Belçika Krallığındakı Səfirliyi, ikinci katib |
| **1998-2000 -** | Xarici İşlər Nazirliyi, Beynəlxalq Təşkilatlar İdarəsi, ikinci katib, birinci katib, şöbə müdiri |
| **2000 -** | Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfirliyi, müşavir |
| **2004 -** | Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfirliyi, müvəqqəti işlər vəkili |
| **2004-cü ilin oktyabr ayından etibarən -** | Kimyəvi Silahların Qadağan olunması üzrə Təşkilatda Azərbaycan Respublikasının daimi nümayəndəsi və Azərbaycan Respubliksının NATO yanında Nümayəndəliyinin başçısı |
| **Xarici dillər -** | Rus, ingilis, amhar |
| **Ailə vəziyyəti -** | Evlidir. |

# E.O.ƏMİRBƏYOVUN AZƏRBAYCAN RESPUBLİKASININ İSVEÇRƏ KONFEDERASİYASINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elçin Oktyabr oğlu Əmirbəyov Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 oktyabr 2004-cü il.**



## Elçin Əmirbəyov

***Tərcümeyi-hal***

| | |
|---|---|
| **Doğulduğu il:** | 1972, Bakı, Azərbaycan |
| **Təhsil:** | Azərbaycan Dövlət Xarici Dillər Universiteti, 1988-1992<br>Diplomatik kurslar, Dövlət İdarəetmə İnstitutu, Paris, Fransa, 1993,<br>NATO Müdafiə Kolleci, Roma, İtaliya, 1994<br>Milli və beynəlxalq təhlükəsizlik üzrə kurslar, C.Kennedi adına İdarəetmə Məktəbi, Harvard Universiteti, Vaşinqton, ABŞ, 2000 |
| **Diplomatik rütbəsi:** | Fövqəladə və səlahiyyətli səfir |
| **1992-1995 -** | Xarici İşlər Nazirliyi, Beynəlxalq Təşkilatlar İdarəsi, attaşe, üçüncü katib |
| **1995-1997 -** | Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyi, ikinci katib |
| **1998-1999 -** | Xarici İşlər Nazirliyi, Beynəlxalq Təşkilatlar İdarəsi, birinci katib |
| **1999-2001 -** | Xarici İşlər Nazirliyi, Beynəlxalq Təşkilatlar İdarəsi, Beynəlxalq Təhlükəsizlik və Əməkdaşlıq Şöbəsinin müdiri |
| **2001-2003 -** | Azərbaycan Respublikasının NATO yanında Daimi Nümayəndəliyi, müşavir |
| **2003-2004 -** | Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyi, müşavir |
| **2004-cü ilin may ayından etibarən -** | Azərbaycan Respublikasının BMT və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi |
| **2004-cü ilin oktyabr ayından etibarən -** | Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında fövqəladə və səlahiyyətli səfiri |
| **Xarici dillər -** | Rus, ingilis, fransız, türk, ərəb |
| **Ailə vəziyyəti -** | Evlidir, bir qızı var. |

# A.Z. MƏMMƏDOVUN AZƏRBAYCAN RESPUBLİKASININ BELÇİKA KRALLIĞINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Arif Zahid oğlu Məmmədov Azərbaycan Respublikasının Belçika Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 oktyabr 2004-cü il.**



## Arif Məmmədov

***Tərcümeyi-hal***

| | |
|---|---|
| **Doğulduğu il:** | 1968, Gəncə, Azərbaycan |
| **Təhsil:** | Hərbi İnstitut, şərqşünaslıq fakültəsi, Moskva şəhəri, 1983-1988<br>Beynəlxalq Əlaqələr İnstitutu, Klingendael, Niderland, 1993<br>Diplomatik kurslar, Lids Universiteti, Böyük Britaniya, 1994 |
| **Diplomatik rütbəsi:** | Fövqəladə və səlahiyyətli səfir |
| **1988-1990 -** | SSRİ-nin hərbi missiyası, Həbəşistan, hərbi tərcüməçi, baş hərbi tərcüməçi |
| **1991-1992 -** | Bakı şəhəri İcra Hakimiyyəti, Təşkilat İdarəsi |
| **1993-1994-** | Xarici İşlər Nazirliyi, Dövlət Protokolu İdarəsi, ikinci katib, |
| **1994-1995 -** | Xarici İşlər Nazirliyi, Avropa və Amerika İdarəsi, ikinci katib |
| **1995-2000 -** | Azərbaycan Respublikasının Belçika Krallığındakı Səfirliyi, ikinci katib, birinci katib, müşavir |
| **2000-ci ildən etibarən -** | Azərbaycan Respublikasının Avropa İttifaqı yanındakı Nümayəndəliyinin başçısı |
| **2004-cü ilin oktyabr ayından etibarən -** | Azərbaycan Respublikasının Belçika Krallığında fövqəladə və səlahiyyətli səfiri |
| **Xarici dillər:** | Rus, ingilis, amhar, fransız |
| **Ailə vəziyyəti:** | Evlidir, iki övladı var. |

# AZƏRBAYCAN RESPUBLİKASININ PAKİSTAN İSLAM RESPUBLİKASINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ E.Y.MƏDƏTLİNİN İQAMƏTGAHI İSLAMABAD ŞƏHƏRİNDƏ OLMAQLA, EYNİ ZAMANDA AZƏRBAYCAN RESPUBLİKASININ ƏFQANİSTAN KEÇİD İSLAM DÖVLƏTİNDƏ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Pakistan İslam Respubliakasında fövqəladə və səlahiyyətli səfiri Eynulla Yədulla oğlu Mədətli İqamətgahı İslamabad şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Əfqanistan Keçid İslam Dövlətində fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 26 noyabr 2004-cü il**



## Eynulla Mədətli

***Tərcümeyi-hal***

| | |
|---|---|
| **Doğulduğu il:** | 1954, Naxçıvan şəhəri |
| **Təhsil:** | Naxçıvan Dövlət Universiteti, tarix fakültəsi,1971-1975<br>Azərbaycan Elmlər Akademiyası, Fəlsəfə və Hüquq İnstitutu, Aspirant, 1981<br>Fəlsəfə Elmləri namizədidir |
| **Diplomatik rütbə:** | Fövqəladə və səlahiyyətli səfir |
| **1975-1977 -** | Müəllim, orta məktəb |
| **1977-1996 -** | Şahbuz rayon Partiya Komitəsi, Naxçıvan Elm Mərkəzi, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Vilayət Partiya Komitəsi, əməkdaş |
| **1991-1995 -** | Naxçıvan Muxtar Respublikası Ali Məclisinın deputatı |
| **1996 -** | Azərbaycan Respublikasınnın İran İslam Respublikasının Təbriz şəhərindəkı Konsulluğu, baş konsul |
| **1996-2001 -** | Azərbaycan Respublikasınnın İran İslam Respublikasındakı Səfirliyi , müşavir |
| **2001-2002 -** | Xarici İşlər Nazirliyi, müşavir |
| **2002-ci ildən etibarən -** | Azərbaycan Respublikasının Pakistan İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri |
| **Xarici dillər:** | Rus, fars, ingilis |
| **Ailə vəziyyəti:** | Evlidir, üç övladı var |

## *A.Ə.ƏZİMBƏYOVUN AZƏRBAYCAN RESPUBLİKASININ ÖZBƏKİSTAN RESPUBLİKASINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ VƏZİFƏSİNDƏN GERİ ÇAĞIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Aydın Əlibəy oğlu Əzimbəyov Azərbaycan Respublikasının Özbəkistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 16 dekabr 2004-cü il**

## *N.R.ABBASOVA AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ DƏRƏCƏSİ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Namiq Rəşid oğlu Abbasova Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 16 dekabr 2004-cü il**

## *N.R.ABBASOVUN AZƏRBAYCAN RESPUBLİKASININ ÖZBƏKİSTAN RESPUBLİKASINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYƏTLİ SƏFİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Namiq Rəşid oğlu Abbasov Azərbaycan Respublikasının Özbəkistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 16 dekabr 2004-cü il**



# Namiq Abbasov

***Tərcümeyi-hal***

| | |
|---|---|
| **Doğulduğu il:** | 1940 |
| **Təhsil:** | Azərbaycan Dövlət Universiteti, jurnalistika fakültəsi, 1962 |
| **Diplomatik rütbəsi:** | Fövqəladə və səlahiyyətli səfir |
| **1962-1970 -** | «Abşeron» qəzeti, şöbə müdiri, məsul katib, redaktor müavini, redaktor |
| **1970-1977 -** | Azərbaycan Kommunist Partiyasının Abşeron rayon Komitəsinin şöbə müdiri, ikinci katib |
| **1977-1979 -** | SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Ali məktəbində təhsil |
| **1979-cü ildən etibarən -** | Azərbaycan SSR DTK-nin şöbə rəisinin müavini, şöbə rəisi, sədr müavini |
| **1992-1995 -** | Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini, birinci müavini vəzifəsini icra edən |
| **1995-2004 -** | Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri |
| **2004-cü ildən etibarən -** | Azərbaycan Respublikasının Özbəkistanda fövqəladə və səlahiyyətli səfiri<br>General-polkovnik rütbəsinə malikdir. |
| **Ailə vəziyyti:** | Evlidir, 2 övladı var. |

## *Q.D.OSMANOVA AZƏRBAYCAN RESPUBLİKASININ BİRİCİ DƏRƏCƏLİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ ELÇİSİ DİPLOMATİK RÜTBƏSİ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.2-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Qüdsi Dursun oğlu Osmanova Azərbaycan Respublikasının birinci dərəcəli fövqəladə və səlahiyyətli elçisi diplomatik rütbəsi verilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 16 dekabr 2004-cü il**

## *Q.D.OSMANOVUN AZƏRBAYCAN RESPUBLİKASININ RUSİYA FEDERASİYASININ SANKT-PETERBURQ ŞƏHƏRİNDƏ VƏ LENİNQRAD VİLAYƏTİNDƏ FƏXRİ KONSULU VƏZİFƏSİNDƏN GERİ ÇAĞIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qüdsi Dursun oğlu Osmanov Azərbaycan Respublikasının Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində və Leninqrad vilayətində fəxri konsulu vəzifəsindən geri çağırılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 16 dekabr 2004-cü il**

## *Q.D.OSMANOVUN RUSİYA FEDERASİYASININ SANKT-PETERBURQ ŞƏHƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ KONSULU TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qüdsi Dursun oğlu Osmanov Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 16 dekabr 2004-cü il**



# Qüdsi Osmanov

***Tərcümeyi-hal***

| | |
|---|---|
| **Doğulduğu il:** | 1966, Baqrataşen qəsəbəsi, Noyamberyan rayonu Ermənistan SSR |
| **Təhsil:** | Texniki peşə məktəbi, 1983-1984<br>Sankt-Peterburq Su Kommunikasiyası Universitetinin iqtisadiyyat fakültəsi, 1984-1994<br>Sankt-Peterburq Dövlət Universitetinin hüquqşünaslıq fakültəsi 1998-2005,<br>Sankt-Peterburq Dövlət Universitetinin Beynəlxalq Əlaqələr fakültəsinin aspirantı 2001-ci ildən etibarən |
| **Diplomatik rütbəsi:** | Birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi |
| **1984-1987 -** | Hərbi xidmət (Hərbi Dəniz Donanması) |
| **1994-1997-** | İş adamı |
| **1997-** | Azərbaycan Respublikasının Sankt-Peterburq şəhəri və Leninqrad vilayətində fəxri konsulu |
| **2004-cü ilin dekabr ayından etibarən -** | Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının baş konsulu. |

## *RUSİYA FEDERASİYASININ YEKATERİNBURQ ŞƏHƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ KONSULLUĞUNUN TƏSİS EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

1. Rusiya Federasiyasının Yekaterinburq şəhərində Azərbaycan Respublikasının Baş konsulluğu təsis edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetininə tapşırılsın ki, Rusiya Federasiyasının Yekaterinburq şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirmə məsələlərini bir ay müddətində həll etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Rusiya Federasiyasının Yekaterinburq şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 16 dekabr 2004-cü il**

### *Buxarestdə Azərbaycan Respublikasının səfirliyi binasının açılış mərasimi*

Rumıniya paytaxtı Buxarestdə Azərbaycan Respublikası səfirliyi binasının təntənəli açılışı mərasimində Azərbaycan Prezidenti İlham Əliyev iştirak etmişdir.

Ölkəmizin Buxarestdəki səfiri Eldar Həsənov Prezident İlham Əliyevin Rumıniyaya səfərini yüksək qiymətləndirdi və onun bu mərasimdə iştirak etməsini əlamətdar hal kimi dəyərləndirdi.

Rumıniyada akkreditə olunmuş xarici ölkələrin səfirlərinin də iştirak etdikləri mərasimdə nitq söyləyən Prezident İlham Əliyev Azərbaycanın Rumıniyadakı səfirliyinin yeni binasının açılışı münasibətilə səfiri və əməkdaşları təbrik etdi, onlara xoş arzularını çatdırdı. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycan-Rumıniya dostluq əlaqələrinin daha da inkişaf etdirilməsində Azərbaycan diplomatlarının üzərinə yüksək vəzifələr düşdüyünü xüsusi vurğuladı.

Azərbaycan ilə Rumıniya arasında siyasi əlaqələrin yüksək səviyyəsini qeyd edən dövlətimizin başçısı iqtisadi, elmi, mədəni əlaqələrin inkişafı üçün böyük imkanların olduğunu da bildirdi.

Rumıniyaya rəsmi səfərinin uğurla keçdiyini vurğulayan Prezident İlham Əliyev ölkələrimiz arasında ənənəvi dostluq əlaqələrinin inkişafında səfirliyin əməkdaşlarının əməyini yüksək qiymətləndirdi.

Sonra Azərbaycan Prezidenti səfirliyin binası və əməkdaşların iş şəraiti ilə yaxından tanış oldu, jurnalistlərin suallarına cavab verdi.

**«AzərTAc» 13.10.04**

### *Təbriz şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun açılış mərasimi*

2004-cü il oktyabrın 20-də İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun rəsmi açılış mərasimi keçirilib. Mərasimdə Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini X. Xələfovun başçılıq etdiyi nümayəndə heyəti iştirak edib. Mərasimdə Azərbaycan tərəfindən Respublikamızın İran İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Abbasəli Həsənov, Naxçıvan Muxtar Respublikasının Ali Məclis sədrinin birinci müavini V. Ağahəsənov, Muxtar Respublikanın iqtisadi inkişaf naziri Famil Seyidov və mədəniyyət naziri R. Qulamov da iştirak ediblər. Tədbirdə İran İslam Respublikasını Şərqi Azərbaycan ostanının valisi M.Sübhanüllahi, ölkənin Xarici İşlər Nazirliyinin Baş konsulluq idarəsinin rəisi Seyid Rəsul Mühacir, İran Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi, MDB ölkələri Baş idarəsinin rəisi Mehdi Səfəri və başqa rəsmi nümayəndələr təmsil ediblər.

1994-cü ildə Prezident Heydər Əliyevin İran İslam Respublikasına səfəri zamanı Azərbaycan və İran arasında imzalanmış saziş əsasında İranın Təbriz şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun açılması nəzərdə tutulmuşdu.

İran Prezidenti Seyid Məhəmməd Xatəminin 2004-cü ildə Azərbaycana səfəri çərçivəsində ölkə Prezidenti İlham Əliyevlə aparılan danışıqlarda əldə edilmiş razılaşmalara əsasən, Təbriz şəhərində Azərbaycanın Baş konsulluğunun fəaliyyətə başlamasına dair qərar qəbul edildi. Səfər zamanı həmçinin iki dövlət arasında bütün sahələrdə, xüsusilə iqtisadi sahədə bir çox layihələr qəbul edilmişdi.

Azərbaycanın Təbrizdəki Baş konsulu vəzifəsini müvəqqəti olaraq Respublikamızın İrandakı səfirliyinin müşaviri Cavanşir Vəkilov həyata keçirəcək.

**XİN-in 20.10.04 tarixli press-relizi**

### *Qars şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun açılış mərasimi*

2004-cü il dekabrın 10-da Azərbaycan Respublikasının Türkiyə Respublikasının Qars şəhərində Baş konsulluğunun rəsmi açılışı keçirilmişdir.

Açılış mərasiminə dəvət almış qonaqlar əvvəlcə Ümummilli lider Heydər Əliyevin büstünü ziyarət etmiş və Azərbaycan Respublikası Nazirlər Kabineti, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Naxçıvan MR Ali Məclisi adından əklillər qoymuşlar.

Açılış mərasimində ümumilli lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükut ilə yad edilmiş və Azərbaycanın dövlət himni səslənmişdir.

Azərbaycan Respublikası Baş nazirinin müavini – Türkiyə – Azərbaycan dövlətlərarası müştərək iqtisadi komissiyasının sədri A.Şərifovun başçılıq etdiyi nümayəndə heyətinə Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini X.Xələfov, Azərbaycanın Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri M.Əliyev, Naxçıvan Muxtar Respublikasının Ali Məclis sədrinin birinci müavini V.Ağahəsənov və Nazirlər Kabinetinin şöbə müdiri A.Ağayev daxil idilər.

Mərasimdə Türkiyə tərəfini Qars Valisi N. Turhan, Tuqay Komutanı Tuqay generalı Sezai Bostancı, millət vəkili, Türkiyə – Azərbaycan parlamentlərarası Dostluq Qrupunun başqanı H.İpek, millət vəkili S. Beyribey, Xarici İşlər Nazirliyinin Qafqaz və Orta Asiya Kültür genel mudirinin yardımçısı H. Karshoğlu, Türkiyənin Naxçivandakı Baş konsulu N. Uyanık, Baş konsulluğun xidmət dairəsinə daxil olan 17 vilayətin nümayəndələri və digər rəsmi şəxslər təmsil etmişlər.

Həmin gün Türkiyə Respublikasının 9-cu Prezidenti S. Dəmirəl telefonla əlaqə saxlayaraq Qarsda Baş konsulluğunun açılmasının çox vacib hadisə olduğunu söyləmişdir. Bu münasibətlə, o, konsulluğun əməkdaşlarını, mərasim iştirakçılarını və Qars əhalisini təbrik etmişdir.

Mərasimə üzrlü səbəblərə görə qatıla bilməyən Türkiyə Böyük Millət Məclisinin Başkanı Bülənt Arıncın, Qars mİllət vəkili Z. Karabayın və bəzi vilayət valilərindən Baş konsul H. Zeynalovun adına göndərilən təbrik teleqramları tədbirdə oxunmuşdur.

Sonra Baş konsul H. Zeynalov Baş konsulluğun təsis edilməsi və onun gələcək fəaliyyəti barədə çıxış etmişdir.

Öz növbəsində Qars Valisi N. Turhan qonaqları, mərasim iştirakçılarını və bütün qarslıları bu tarixi gün ilə təbrik etmiş və bu hadisənin Azərbaycan – Türkiyə münasibətlərinin inkişafında və genişləndirilməsində yeni bir təkan olduğunu bildirmişdir.

Mərasimin rəsmi hissəsi Azərbaycan Respublikası Baş nazirin müavini A.Şərifovun çıxışı ilə başa çatdı.

Sonra qonaqların şərəfinə rəsmi ziyafət verilmişdir.

**XİN-in Mətbuat Mərkəzinin**
**10.12.04 tarixli məlumatı**

# ETİMADNAMƏLƏRİN TƏQDİM EDİLMƏSİ

## *Azərbaycan səfiri etimadnaməsini Fransa Prezidentinə təqdim etmişdir*

Azərbaycan Respublikasının Fransadakı fövqəladə və səlahiyyətli səfiri Tarik Əliyev noyabrın 3-də etimadnaməsini Fransa Respublikasının Prezidenti Jak Şiraka təqdim etmişdir.

Təqdimat mərasimindən sonra Prezident Jak Şirak səfir T.Əliyevi qəbul etmişdir. Görüşdə Fransa-Azərbaycan ikitərəfli münasibətlərinin uğurla inkişaf etməsi qeyd olunmuş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunulmuş, gələcəkdə müxtəlif sahələrdə əlaqələrin daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparılmışdır. Fransa Respublikasının Prezidenti Jak Şirak Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə salamlarını çatdırmağı xahiş etmişdir.

**«AzərTAc» 09.11.04**

## *Azərbaycan səfiri etimadnaməsini İtaliya Prezidentinə təqdim etmişdir*

Azərbaycan Respublikasının İtaliyadakı fövqəladə və səlahiyyətli səfiri Emil Kərimov noyabrın 18-də etimadnaməsini İtaliya Respublikasının Prezidenti Karlo Adzelyo Çampiyə təqdim etmişdir.

Mərasimdən sonra prezident K.Çampi ilə səfir E.Kərimov arasında görüş keçirilmişdir. Azərbaycan səfirinə yeni vəzifəsində uğurlar arzulayan Prezident Çampi onun fəaliyyətinin ikitərəfli əlaqələrin inkişafına töhfə verəcəyinə ümidvar olduğunu söyləmişdir. Ölkələrimiz arasında səmərəli əməkdaşlıq münasibətlərinin olduğunu xatırladan dövlət başçısı İtaliya-Azərbaycan əlaqələrinin dərinləşdirilməsinə böyük əhəmiyyət verdiyini vurğulayaraq demişdir ki, bu səbəbdən də Azərbaycan Prezidenti İlham Əliyevi 2005-ci ilin əvvəlində İtaliyaya rəsmi səfərə dəvət etmişdir. Prezident Çampi həmin səfərin ölkələrimiz arasındakı münasibətlərdə yeni mərhələ açacağına əminliyini bildirmişdir.

İtaliyada diplomatik missiyasına başlamasından məmnunluğunu bildirən səfir Emil Kərimov İtaliyada fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulamışdır. Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşdiyini, zəngin təbii sərvətlərə, böyük iqtisadi potensiala malik olduğunu xatırladan səfir bu amillərin ölkəmizin inkişafı və digər ölkələrlə əməkdaşlığın genişləndirilməsi üçün böyük əhəmiyyət kəsb etdiyini bildirmişdir. Azərbaycanda enerji sektorunda iri layihələrin həyata keçirildiyi barədə məlumat verən E.Kərimov demişdir ki, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istifadəyə verilməsindən sonra Azərbaycan enerji daşıyıcılarının dünya miqyaslı ixracçısına çevriləcəkdir.

E.Kərimov Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü və onun ağır nəticələrindən danışmış, Azərbaycanın bu problemin sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsipləri əsasında ədalətli həllinə tərəfdar olduğunu bildirmişdir.

Prezident Karlo Adzelyo Çampi Qafqaz və Xəzər regionunun İtaliya üçün əhəmiyyətini bildirərək, bu regionda ən mühüm dövlətlərdən biri kimi Azərbaycanla əməkdaşlığın genişləndirilməsinə ölkəsinin böyük maraq göstərdiyini təkrarən vurğulamış və Azərbaycan diplomatını yeni təyinatı münasibətilə bir daha təbrik etmişdir.

**«AzərTAc» 19.11.04**

### *Azərbaycan səfiri etimadnaməsini İsveçrə Konfederasiyası Prezidentinə təqdim etmişdir*

Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Elçin Əmirbəyov noyabrın 23-də öz etimadnaməsini bu ölkənin Prezidenti Josef Deysə təqdim etmişdir.

Rəsmi mərasimdən sonra Prezident Josef Deys və Səfir Elçin Əmirbəyov arasında görüş keçirilmişdir. Görüş zamanı Səfir E.Əmirbəyov Azərbaycan – İsveçrə dostluq münasibətlərinə toxunaraq, ölkələrimiz arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində öz səylərini əsirgəməyəcəyini vurğulamışdır.

Daha sonra Səfir Azərbaycandakı ictimai-siyasi vəziyyət, ölkə iqtisadiyyatının nailiyyətləri, genişmiqyaslı regional layihələr, Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, ətraf mühitlə bağlı mövcud olan bir sıra problemlərin vəziyyəti haqqında ətraflı məlumat vermişdir.

**XİN-in Mətbuat Mərkəzinin**
**27.11.04 tarixli məlumatı**

### *Azərbaycan səfiri etimadnaməsini Hindistan Prezidentinə təqdim etmişdir*

Azərbaycan Respublikasının Hindistandakı fövqəladə və səlahiyyətli səfiri Tamerlan Qarayev noyabrın 30-da öz etimadnaməsini Hindistan Prezidenti Əbdül Kalama təqdim etmişdir.

Mərasimdən sonra Prezident Ə.Kalam və səfir T.Qarayevin təkbətək görüşü olmuşdur. Səfir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səmimi salamlarını Hindistan dövlətinin başçısına çatdırmış, ona respublikamız haqqında ətraflı məlumat vermiş, Azərbaycanın Hindistan ilə əlaqələrin genişlənməsi və dərinləşməsində maraqlı olduğunu bildirmişdir.

Hindistan Prezidenti Azərbaycan Prezidenti İlham Əliyevə və ölkəmizin xalqına ən səmimi arzularını çatdırmağı xahiş etmiş, Hindistanın da Azərbaycan ilə ikitərəfli münasibətlərin, xüsusilə də iqtisadi sahədə əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu diqqətə çatdıraraq səfirə bu istiqamətdə fəaliyyətində lazımi dəstəyin veriləcəyini söyləmişdir.

**«AzərTAc» 06.12.04**

### *Azərbaycan səfiri etimadnaməsini Monqolustan Prezidentinə təqdim etmişdir*

Azərbaycan Respublikasının Çin Xalq Respublikası və Monqolustandakı fövqəladə və səlahiyyətli səfiri Yaşar Əliyev etimadnaməsini Monqolustan Prezidenti Natsagiyn Baqabandiyə təqdim etmişdir.

Azərbaycan diplomatı Monqolustan parlamentinin sədri, xarici işlər naziri və onun müavini, sənaye və ticarət naziri, Ticarət Palatasının sədri, parlamentin deputatları və Xarici İşlər Nazirliyinin idarə rəisləri ilə görüşlər də keçirmişdir.

Görüşlər zamanı Azərbaycan və Monqolustan arasında dostluq münasibətləri, Dağlıq Qarabağ problemi barədə söhbət getmiş, iqtisadi-ticarət, təhsil və mədəniyyət sahələrində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Yaşar Əliyev Monqolustanın kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşmüş və Azərbaycan barədə ətraflı məlumat vermişdir. Monqolustan mətbuatı və mərkəzi televiziya Azərbaycan diplomatının keçirdiyi görüşlər barədə məlumat yaymışdır.

**«AzərTAc» 08.12.04**

## *İqtisadi diplomatiya - Xarici siyasətin mühüm tərkib elementlərindən biri kimi*

**Rovşən Kazımov**[15]

Siyasətdə iqtisadi faktorların əhəmiyyəti XX əsrin əvvəllərindən etibarən daha da artmağa başlamışdır. Beynəlxalq maliyyə-kredit sisteminin formalaşması, trans-milli korporasiyaların yaranması və bunun nəticəsində xarici birbaşa investisiyaların həcminin yüksək templə artımı, beynəlxalq elmi-texniki mübadilənin inkişafı, o cümlədən işçi qüvvəsinin beynəlxalq miqrasiyası, qlobal və regional səviyyədə müxtəlif inteqrasiya bloklarının yaradılması və nəhayət, qloballaşma prosesi – bütün bu amillər dövlətlərin xarici siyasətlərində iqtisadi faktorlara xüsusi fikir verməyi zəruri etmişdir.

Əgər tarixə nəzər salsaq görərik ki, Forin Ofis, Dövlət Departamenti və digər inkişaf etmiş ölkələrin diplomatik xidmət orqanları XIX əsrin sonlarından etibarən (qeyd etmək lazımdır ki, dünya bazarının formalaşması da məhz bu dövrə təsadüf edir) iqtisadi diplomatiya ilə fəal məşğul olmağa başlamışlar. Bu dövrdən etibarən qeyd olunan qurumlar öz ölkələrinin iqtisadi maraqlarının xarici bazarlarda qorunmasında yaxından iştirak etmiş və bu məqsəd üçün bütün diplomatik vasitə və üsullar səfərbər olunmuşdur. Lakin bu o demək deyildir ki, iqtisadi diplomatiya termininin mövcud olmadığı dövrdə beynəlxalq münasibətlərdə iqtisadi məsələlərə ümumiyyətlə fikir verilmirdi. Müxtəlif ölkələrin diplomatik xidmətlərinin çoxəsrllik tarixi, formalaşması və inkişafı beynəlxalq iqtisadi münasibətlər ilə sıx bağlı olmuşdur. Yəni xarici siyasətdə iqtisadi faktorlar daima mühüm əhəmiyyət kəsb etmişdir.

İqtisadi diplomatiya termini beynəlxalq arenada ictimai-siyasi münasibətlərin nisbətən yeni təzahür formalarından hesab olunur. Əlbəttə, belə bir terminin yaranması beynəlxalq münasibətlərdə iqtisadi faktorların artmaqda davam edən təsirinin qanunauyğun təzahürü kimi qəbul edilə bilər. Bu fəaliyyət sahəsi dövlətin beynəlxalq fəaliyyətinin ayrılmaz tərkib hissəsi olmaqla, xarici iqtisadi siyasətin həyata keçirilməsi üçün praktiki tədbirlər, vasitə və üsulları özündə birləşdirir.

Hal-hazırda iqtisadi diplomatiya beynəlxalq münasibətlərin bütün ölçülərdə ayrılmaz tərkib hissəsi kimi çıxış edir (siyasi, iqtisadi, hüquqi, sosial-mədəni, dini və s. ölçülər).

Siyasət iqtisadiyyatlaşır, iqtisadiyyat isə siyasətləşir – bu prosesi ümumi cizgilərdə belə ifadə etmək olar.

Bu anlayışı təkcə dövlət strukturlarının köməyi ilə ölkənin xarici ticarət-iqtisadi əməliyyatlarına dəstək verilməsi ilə əlaqələndirmək düzgün olmazdı. Son dövrlərdə dünya iqtisadiyyatında baş verən proseslər iqtisadi diplomatiyanın fəaliyyət sferasını xeyli genişləndirmişdir. Ənənəvi fəaliyyət sahələri ilə yanaşı aşağıdakı məsələlərin həll edilməsi də iqtisadi diplomatiyanın vəzifələri sırasına daxil olmuşdur:

– milli iqtisadiyyatın dünya bazarında uğurla iştirak edə bilməsi üçün ən əlverişli şəraitin yaradılması;

– iqtisadi maraqların və iqtisadi təhlükəsizliyin elə bir şəkildə təmin olunması ki, bu ümummilli məsələlərin həllinə yardım etmiş olsun;

– yerli biznesin xaricdə fəaliyyəti; xüsusən potensial resurslara və bazara daxil olarkən ona siyasi dəstəyin göstərilməsi;

– ölkənin insan potensialının inkişafı üçün ən əlverişli şəraitin yaradılması.

15 Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin iqtisadi əməkdaşlıq və inkişaf idarəsinin attaşesi, Azərbaycan Dövlət İqtisad Universitetinin aspirantı.

Qeyd etmək lazımdır ki, milli iqtisadi maraqlar və milli iqtisadi təhlükəsizliyin təmin olunması müasir iqtisadi diplomatiyanın vacib sahələri kimi çıxış edirlər. Ümumiyyətlə, bu sahələr iqtisadi diplomatiyanın mühüm istinad nöqtələri hesab oluna bilər. Yəni iqtisadi diplomatiya ayrı-ayrı dairələrin mənafelərini deyil, bütün cəmiyyətin iqtisadi maraqlarının qorunması ilə məşğul olmalıdır. Bu, müasir iqtisadi diplomatiyanın ən önəmli prinsipidir.

Dünya iqtisadiyyatının qloballaşmasının indiki mərhələsində milli iqtisadi təhlükəsizliyin qorunması problemi xüsusilə aktuallaşmışdır. İqtisadi təhlükəsizlik iqtisadi diplomatiyanın həyata keçirilməsi üçün mühüm şərtlərdən biridir. İqtisadi təhlükəsizlik geniş mənada cəmiyyətin bütün təbəqələrinin maraqlarını özünə daxil edən milli iqtisadiyyatın daimi inkişaf etdirilməsi məqsədilə ümummilli platforma kimi qəbul edilməlidir. Yəni iqtisadi təhlükəsizlik dedikdə ölkənin xarici amillərin neqativ təsirlərindən qorunması, iqtisadiyyatın stabil inkişaf etməsi başa düşülür. Bu zaman Ümumi Daxili Məhsulun artım tempi dünya bazarında baş verən hər hansı bir hadisədən, konyuktur dəyişikliklərindən asılı olmur və ölkə yüksələn xətt üzrə inkişaf edir. Bu platformada dünya təcrübəsi və beynəlxalq əməkdaşlıq nəzərə alınmalı, liberalizm və proteksionizm siyasətlərindən elə istifadə olunmalıdır ki, dövlət ikitərəfli və çoxtərəfli iqtisadi münasibətlərdən maksimum mənfəət əldə edə bilsin. Bu zaman iqtisadi təhlükəsizliyin təmin olunması üzrə tədbirlər uzunmüddətli milli iqtisadi maraqlara cavab verməli, cəmiyyətin bütün təbəqələrinin hüquq və öhdəlikləri nəzərə alınmalıdır.

Qeyd etmək lazımdır ki, iqtisadi təhlükəsizliyin, eləcə də milli iqtisadi maraqların təmin olunması məsələsi yeni məfhum deyildir. Lakin uzun müddət ərzində bu anlayışlar bu və ya digər dərəcədə avtarkiya anlayışı ilə, yəni xarici bazardan minimum dərəcədə asılı olmaq ilə assosiasiya olunmuşdur. Məlum olduğu kimi, keçmiş SSRİ-nin dünya bazarı ilə münasibətləri də avtarkiya xarakteri daşıyırdı. Ancaq bu təkcə SSRİ-yə məxsus deyildi. Bəzi III dünya ölkələri də iqtisadi təhlükəsizlik dedikdə avtarkiya rejimini başa düşürdülər. Son onilliklərin təcrübəsi sübut etdi ki, qapalı iqtisadiyyat qurmaqla uzunmüddətli perspektivdə heç bir nailiyyət əldə etmək olmaz. Məhz bunun nəticəsində müasir dövrümüzdə dünya iqtisadiyyatında liberallaşma meyllərinin üstünlük təşkil etdiyini müşahidə etmək olar. Kapitalın, texnologiyanın, əmtəələrin ölkəyə sərbəst daxil ola bilməsi və eyni zamanda ölkənin iqtisadi subyektlərinin dünya bazarında uğurla iştirak etməsi – bütün bunlar liberal iqtisadiyyat şəraitində həyata keçirilə bilər. Əlbəttə, burada dövlət tənzimlənməsi də mühüm rol oynamalıdır. Dövlət tənzimlənməsi xüsusən iqtisadiyyatları keçid dövrünü yaşayan ölkələr üçün zəruri xarakter daşıyır. Çünki iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi olmazsa, bu arzuolunmaz nəticələrə gətirib çıxara bilər. Ona görə də liberal iqtisadiyyatı ölkənin iqtisadi potensialı, milli iqtisadi təhlükəsizlik, yerli istehsal subyektlərinin rəqabət qabiliyyəti amillərini nəzərə almaqla qurmaq lazımdır. Hal-hazırda iqtisadi ədəbiyyatlarda iqtisadi təhlükəsizliyin aşağıdakı 3 əsas elementi göstərilir:

1. İqtisadi müstəqillik. Burada dövlətin milli resurslar üzərində nəzarətinin mövcudluğu, onun beynəlxalq ticarətdə tam hüquqlu üzv qismində iştirak edə bilmək qabiliyyəti başa düşülür.

2. Milli iqtisadiyyatın davamlılığı və stabilliyi. İqtisadi sistemin elementlərinin etibarlılığını, mülkiyyətin bütün formalarının qorunmasını, səmərəli sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün təminatın mövcud olmasını nəzərdə tutur.

3. Özünü inkişaf qabiliyyətinin olması. Milli iqtisadi maraqların müstəqil şəkildə qorunması, istehsalın daimi olaraq modernləşməsi, səmərəli investisiya və innovasiya siyasətlərinin həyata keçirilməsi, ölkənin əqli və əmək potensialının inkişaf etdirilməsinin mümkünlüyü başa düşülür.

Hal-hazırda dövlətin iqtisadi təhlükəsizliyinin təmin olunmasının müxtəlif yolları

arasında aşağıdakılar daha geniş tətbiq olunurlar:

– Çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi;
– İxrac və idxalın diversifikasiyası;
– İxrac yönümlü, yəni xarici bazarlar üçün nəzərdə tutulan istehsal sahələrinin yaradılması;
– Baş verəcək hər hansı bir "fors-major" hadisəyə qarşı ölkə daxilində rezervin mövcudluğu;
– İqtisadi təsir üsullarının mövcudluğu.

Optimal xarici iqtisadi siyasətin və onun həyata keçirilməsi üsullarının işlənib hazırlanması zamanı digər mühüm bir anlayışın – milli iqtisadi maraqlar anlayışının müəyyən edilməsi də vacib rol oynayır. Bu maraqları dəqiq müəyyən etmədən iqtisadi siyasət müxtəlif istiqamətli, dəqiq məqsədlər daşımayan konyuktur fəaliyyətlər məcmusuna çevrilə bilər. Əgər dəqiq işlənib hazırlanmış milli iqtisadi maraqlar mövcuddursa, deməli, ölkənin xarici aləmdə prioritetləri, potensial əməkdaşları da mövcuddur. Milli iqtisadi maraqları ayrı-ayrı fərdlərin deyil, cəmiyyətin maraqları kimi qəbul etmək lazımdır. Uzunmüddətli perspektivdə milli iqtisadi maraqlar ölkənin əhalisinin əksər hissəsinin rifah halının maksimim mümkün artımına, qısa müddətli perspektivdə isə həyata keçirilən islahatlar və restrukturizasiya nəticəsində baş verə bilən hər hansı itkiləri minimuma endirməyə xidmət etməlidir. Xarici iqtisadi siyasəti işləyib hazırlayarkən dövlət əhalinin müxtəlif təbəqələrinin iqtisadi maraqlarını ümumu məxrəcə gətirən orqan kimi çıxış etməlidir. Bu zaman ölkənin təkcə cari deyil, həm də gələcək iqtisadi maraqları əsas götürülməlidir.

## *Beynəlxalq münasibətlərdə milli maraq amili: Mahiyyəti və əsas xüsusiyyətləri*

**Kamal Adıqözəlov[16]**

Beynəlxalq sistemdə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, onların immanent kvintessensiyası və interpretasiyası bu sistemin subyektləri arasındakı qarşılıqlı fəaliyyətin, başqa sözlə desək, beynəlxalq siyasətin təbiəti ilə sıx bağlıdır.

Beynəlxalq siyasət səhnəsində hər bir dövlət özünün milli maraqlarına və geosiyasi təhlükəsizliyinə uyğun olaraq hərəkət etməyə çalışır. Bu zaman ölkənin beynəlxalq aləmdə fəal siyasət yeritməsi üçün tələb olunan «milli maraq» anlayışı meydana çıxır.

Bu və ya digər dövlətin xarici siyasəti sosial-iqtisadi və ictimai-siyasi inkişafın səviyyəsi, ölkənin coğrafi mövqeyi, milli-tarixi ənənə və dəyərlər, suverenlik və təhlükəsizliyin təmin olunmasının məqsəd və tələbatları da daxil olmaqla bir çox determinantlar vasitəsi ilə müəyyənləşdirilir. Bütün bunların məcmusu xarici siyasətin vacib ünsürlərinə çevrilərək, milli maraq konsepsiyasında öz əksini tapır.

Hər bir fəaliyyət forması kimi, xarici siyasi fəalliyyət də mənafe anlayışı ilə sıx bağlıdır. Beynəlxalq həyatda müəyyən mövqelər uğrunda mübarizə aparan, digər ölkələrlə əlaqələrə girən dövlətlər müəyyən konkret maraqlardan çıxış edirlər. Buna görə də mənafe anlayışının xarici siyasətin başlıca determinantı olmasına qarşı dəlil gətirmək nonsensdir.

Lakin bu da bir həqiqətdir ki, xarici siyasət fəaliyyəti müxtəlif xarakterli və səviyyəli maraqlarla şərtlənir, yəni dövlətin xarici siyasətinin həyata keçirilməsində onun başlıca maraqları ilə yanaşı, ayrı-ayrı dövrlərdə üzə çıxan maraqlar, bəzən hətta müxtəlif qrupların mənafelərinə xidmət göstərən vəzifələr də iştirak edir. Xarici siyasət fəaliyyətinin şərtlənməsi mezanizmində iştirak edən maraqların rolunu, əhəmiyyətini aydınlaşdırmaq üçün «milli maraq» anlayışından istifadə olunur.

«Milli maraq» anlayışı dövlətin bütün fəaliyyətinin, və xüsusən də xarici siyasət fəaliyyətinin əsasında duran maraqlar zəncirində xüsusi rol oynayan daha əhəmiyyətli mənafeləri vurğulamaq zərurətini ifadə edir. Bu anlayışın elmə daxil edilməsi dövlətin və onun xarici siyasətinin siniflər və sosial qrupların mənafeləri fövqündə dayandığına işarədir.

Səciyyəvi haldır ki, Amerika xarici siyasət nəzəriyyəsi və praktikasında üstün mövqe qazanmış, həmçinin beynəlxalq siyasi fikrin aparıcı məktəblərindən olan «siyasi realizm» cərəyanının numayəndələri milli maraqları istənilən dövlətin xarici siyasət fəaliyyətinin məhək daşı hesab edirlər[17]. Onların fikrincə, beynəlxalq siyasət labirintində doğru yol axtarıb tapmağın çıxış nöqtəsi «güc» kateqoriyası əsasında formalaşdırılan maraq konsepsiyasıdır. Siyasi realistlər təsdiq edirlər ki, milli maraqlara əsaslanan xarici siyasət hansısa universal əxlaqi prinspilər vasitəsilə təşviq edilən siyasi kursu elə əxlaqi baxımdan da geridə qoyur.

Tarixin müxtəlif dönəmlərində əksər dövlətlərin xarici siyasəti xeyli dərəcədə milli mənafelər zəminində formalaşdırılsa da, «milli maraq» anlayışı nisbətən yaxın dövrlərdə elmi dövriyyəyə gətirlmişdir. İlk dəfə olaraq, «milli maraq» istilahı 1935-ci ildə sosial elmlərin Oksford ensiklopediyasına daxil edilmiş və bundan sonra siyasi elmdə özünə möhkəm vətəndaşlıq hüququ qazanmışdır. Onun işlənib hazırlanmasında tanınmış amerikan alimləri – protestant teoloq, dialektik teologiya ideyalarının davamçısı Reyhold Nibur və tarixçi, ABŞ istorioqrafiyasında iqtisadi cərəyanın yaradıcılarından olan Çarlz Ostin Birdin böyük xidmətləri var[18].

İkinci Dünya Müharibəsindən sonra milli maraq probleminə diqqət xeyli artmış, elmi-tədqiqat işlərinin miqyası genişlənmişdir. H.Morgentau həmin dövrün mübahisə-polemikalarını

16 Azərbaycan Repsublikası Prezidentinin İcra Aparatının Xarici Əlaqələr Şöbəsinin mütəxəssisi, Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının aspirantı.
17 Гаджиев К. С., Введение в геополитику. М., 2000, с.349.
18 Гаджиев К. С., göstərilən əsər.

«yeni böyük debatlar» şəklində dəyərləndirmişdir. Bu konsepsiya daha müfəssəl şəkildə məhz H.Morgentaunun 1948-ci ildə işıq üzü görmüş «Milli maraqların müdafiəsi» adlı əsərində öz əksini tapmışdır[19]. Milli maraq konsepsiyasının işlənib hazırlanmasında Amerika tədqiqatçılarından C.Kennan, U.Lippman, K.Uolts, U.Ferniss, C.Rozenau və başqaları böyük xidmətlər göstərmişlər. Fransız alimləri R.Aron, P.Renuven, J.-B.Dyurozel, F.Brayer, R.Debre milli maraq probleminin spesifik və orijinal aspektlərini tədqiq etmişlər.

«Milli maraq» kateqoriyası abstrakt və subyektiv səciyyə daşıyır ki, bu da onun parametrlərinin daha çox dünyanın siyasi xəritəsi və müvafiq dövlətin dominant dəyərlər sistemi ilə müəyyən olunmasından qaynaqlanır. Milli maraqların müəyyənləşdirilməsi prosesi siyasətin analitik və əhəmiyyətli bazası sayılan məntiqi hökm-qərarlardan çıxış etməklə gerçəkləşdirilir[20]. Onların reallıqla səsləşməsi milli maraqların gerçəkləşdirilməsinə yönəlmiş fəaliyyətin nəticələri ilə ölçülür. Bu isə öz növbəsində, iradi və əməli fəaliyyətin mövcudluğu, həmçinin qarşıda düran dövləti məqsədlərin həyata keçirilməsi üçün zəruri olan vasitələrlə şərtlənir.

Çox vaxt dövlət maraqlarını milli və ictimai (mülki cəmiyyət) maraqlara qarşı qoyurlar. Tez-tez sözü gedən anlayışların qarşılıqlı əlaqədə olmaları təsdiqlənsə də, onların məhz «milli maraq – dövlət marağı», «dövlət marağı – ictimai maraq» dixotomiyası çərçivəsində izahı məqsədə uyğun hesab edilir. Lakin fikrimizcə, məsələnin bu şəkildə qoyuluşu real məna və əhəmiyyət kəsb etmir.

Əvvəla, əgər söhbət milli dövlətdən və ya millət-dövlətdən gedirsə, deməli, beynəlxalq münasibətlərin həqiqi aktoru nəzərdə tutulur. Belə olan təqdirdə milli maraqlardan və dövlət maraqlarından sinonim məfhumlar kimi olmasa da, yaxın əlaqəli və bir-birini tamamlayan anlayışlar qismində bəhs etmək elmi-siyasi əsaslara söykənir[21].

İkincisi, milli maraq millətin suveren dövlət quruluşuna və mülki cəmiyyətə yönəlmiş maraqlarının toplusudur[22]. Dövlət və mülki cəmiyyət maraqları isə məzmun və mündəricə baxımından milli maraqlarla eyniyyət təşkil etməklə bərabər, həm də oxşar məna elementlərini özündə ehtiva edir[23]. Buna görə də “milli-dövlət maraqları” anlayışına üstünlük verən müəlliflərlə razılaşmamaq mümkün deyildir. Nəzərə almaq lazımdır ki, beynəlxalq aləmdə milləti son nəticədə dövlət təmsil edir. Məhz bu səbəbdən benyəlxalq siyasət leksikonunda milli maraqlar dedikdə, bir qayda olaraq, dövlət maraqları və əksinə, dövlət maraqları dedikdə isə milli maraqlar nəzərdə tutulur.

Üçüncüsü, milli-dövlət maraqları geosiyasi parametrlərə və dövlətin resurs imkanlarına müvafiq olaraq formalaşdırılır[24]. Bu zaman ölkənin iqtisadi inkişaf səviyyəsi, dövlətin dünya birliyindəki çəkisi və yeri, milli-mədəni ənənələr mühüm rol oynayır.

Dördüncüsü, beynəlxalq hüququn suverenlik, ərazi bütövlüyü, daxili işlərə qarışmama və s. təməl prinsiplərini özündə ehtiva edən real, obyektiv milli və ya dövlət maraqları dövlətin xarici siyasət fəaliyyətinin əsas hərəkətverici amili və beynəlxalq münasibətlərin gerçəkləşdirilməsinin çıxış nöqtəsidir. Milli maraqların formalaşdırılması ölkənin və ya xalqın milli-tarixi təcrübəsini məcmu halda xarakterizə edən mürəkkəb iqtisadi, sosial, milli-psixoloji faktorlar zəminində həyata keçirilən tədrici və uzunmüddətli tarixi prosesdir. Bu halda milli maraqlar ictimai-tarixi fenomendir və onun daşıcıyılarının şüur və idrakından kənarda müstəqil şəkildə mövcud ola bilməz. Bu isə milli maraqlarla milli kimlik amili arasındakı sıx əlaqələrlə şərtlənir[25].

Beşincisi, milli maraqların nüvəsini dövlətin özünüqoruma imperativi təşkil edir. «Milli maraq» anlayışının konturları daha çox müvafiq cəmiyyətin dəyərlər sistemini əks etdirən ideallarla müəyyənləşdirilsə də, bu, rəmzi məna daşıyır. Çünki sözü gedən ideallərın özü də

19 Morgenthau H., Politics among Nations. The Struggle for Power and Peace. N.Y., 1948, p. 8.
20 Розенау Дс., Мировая политика в двисении. Теория изменений и преемственности. Реферат. М., 1992, с. 180.
21 Концепция национальных интересов. Мировая экономика и международные отношения, 1996, № 8, с. 79
22 Гаджиев К. С., göstərilən əsər, с. 350.
23 Yenə orada.
24 Yenə orada.
25 Morgenthau H., göstərilən əsər, p. 67.

özünüqoruma imperativi olmadan mövcud ola bilməz. «Kritik parametrlər kompleksi» deyilən sindromun pozulması dövlətin öz suverenliyini və müstəqilliyini qoruyub saxlaya bilmək iqtidarında olmaması anlamına gəlir. Milli maraqları işləyib hazırlayarkən və onun əsasında bu və ya digər xarici siyasi qərar qəbul edərkən, dövlət rəhbərləri obyektiv iqtisadi, siyasi, coğrafi və digər amilləri, həmçinin daxili siyasi maraqları, müxtəlif sosial-siyasi qüvvələrin, təzyiq qruplarının, ictimai təşkilatların siyasi manevrlərini nəzərə alırlar. Həmçinin, qəbul edilmiş qərarlara digər dövlətlərin mümkün reaksiyası da əvvəlcədən diqqət mərkəzində olur[26]

Göründüyü kimi, xarici siyasət fəaliyyətinin başlıca determinantı milli və ya dövlət maraqlarıdır. Milli maraq konsepsiyası daha çox normativ və ideoloji məzmun kəsb edir. Həmin maraqların formalaşdırılmasında və xarici siyasət strategiyasının işlənib hazırlanmasında dövlət xadimlərinin dəyərlər oriyentasiyası, prinsip və baxışları az əhəmiyyət daşımır.

Beynəlxalq münasibətlər sisteminə qoşulmuş digər tərəflərin maraqlarını nəzərə almayan xarici siyasət, təbii ki, reallıqlara söykənmədiyinə görə fiasko ilə sonuclanır. Bu məqam, digər dövlətlərin maraqlarının və dünya birliyinin iradəsinin nəzərə alınmalı olduğu müasir dövrdə xüsusi mənaya malikdir.

Şübhəsiz ki, xarici aləmə ekstrapolyasiya edilmiş milli maraqlar beynəlxalq arenada öz tutumuna və təsir dairəsinə müvafiq olaraq fərqləndirilir. Bu əlamətə görə milli maraqlar həyat əhəmiyyətli və ya başlıca milli maraqlara, daimi, dəyişkən, uzunmüddətli və konyunktur milli maraqlara bölünür.

H. Morgentaunun fikirincə, milli maraq iki əsas elementi özündə ehtiva edir: başlıca (daimi) və ikinci dərəcəli (dəyişkən) maraqlar. Başlıca maraqlar öz növbəsində, üç faktordan ibarətdir: marağın qorunmalı olan təbiəti, onun fəaliyyət göstərdiyi geosiyasi mühit və nəhayət, məqsəd və vasitə seçimini məhdudlaşdıran rasional zərurət[27].

R. Aron və onun bəzi davamçıları "milli maraq" anlayışını son dərəcə çoxmənalı hesab edərək, beynəlxalq münasibətlərin məqsəd və vasitələrinin analizində maraq amilini az əhəmiyyətli hesab edirdilər. Bununla bərabər, R. Aronun istənilən dövlətin daimi maraqları haqqındakı müddəası siyasi realizmin mövqeləri ilə üst-üstə düşür. Tədqiqatçı belə bir fikri xüsusi ilə vurğulayır ki, əbədi maraqlar həm abstrakt, həm də konkret şəkildə təzahür edə bilər. Birinci halda əbədi maraqlar təhlükəsizlik, qüvvə və əzəmətə cəhd tendensiyası ilə müşayiət olunursa, ikinci halda məkanın və yaxud bu və ya digər siyasi vahidin əhatə etdiyi ərazinin genişləndirilməsi, əhalinin say artımı və məlum siyasi aktorun ideologiya və dəyərlər sisteminin yayılması yolu ilə insan qəlblərinin fəthinə istiqamətlənmiş ehtiraslarda təcəssüm edir[28].

Bəşəriyyətin qlobal qarşılıqlı asılılığının artdığı bizim günlərdə isə "maraq" kateqoriyası dövlətlərarası münasibətlər sferasında baş verən hadisə, təzahür və proseslərin mahiyyətinin izahında mühüm rol oynayır. Nəzərə almaq lazımdır ki, bu, heç də həmişə mütləq səciyyə daşımır.

R. Aron qeyd edir ki, dövlətin xarici siyasət fəaliyyəti onun məqsəd seçimində müəyyən azadlığa malik olan liderlərinin davranışında öz ifadəsini tapır. Bununla yanaşı, liderlərin ideologiya, ambisiya, temperament və s. keyfiyyətləri də mühüm əhəmiyyətə malikdir. Digər tərəfdən, onların statusu və tutmuş olduqları mövqe belə bir təəssürat yaradır ki, liderlərin bütün fəaliyyətinin əsasında yalnız milli maraq amili durur[29]. Bəzi tədqiqatçıların rəyinə görə, milli maraq obyektiv xarakter daşısa da, mahiyyət etibarilə dərkedilməzdir. Buna görə də insanların və sosial birliklərin davranışının çeşidli aspektlərinin, həmçinin dəyərlər sisteminin izahında obyektiv maraqlardan çıxış edən tədqiqatçı-alim əsassız-ixtiyari maraqlar kompleksi "yaratmaq" zəminində qaçılmaz ehtimallarla üzləşməli olur. Başqa sözlə, sosioloq özünün fərdi

26 Гаджиев К. С., göstərilən əsər, c. 352.
27 Цыганков П.А., Ганс Моргентау: взгляд на внешнюю политику. Власть и демократия. Зарубежные ученые о политической науке. М., 1992, с. 164.
28 Aron R., Paix et Guerre entre les nations. Paris, 1984, pp. 82-87.
29 Aron R., göstərilən əsər, pp. 97-102.

subyektivizmini öyrəndiyi şəxsin eyni məzmunlu baxışları ilə əvəz etmək risqində bulunur[30].

Sözü gedən hal maraqların tam şəkildə dərkolunmazlığı sindromunu bütün çılpaqlığı ilə canlandırır. Hətta ümumqəbul olunmuş metodların da bu məsələdə köməksiz və aciz olması fikri bir çox təqiqatçıların elmi təfəkkürünə yol açaraq, dövlətlərarası münasibətlər sisteminin rasional geosiyasi məcrada inkişafına şübhələr oyadır. Hər cür skeptisizm və ümumiyyətlə, frontal nihilist münasibətsə həm dövlətlərin xarici siyasi davranışına, həm də beynəlxalq sistemin "təbii infrastrukturuna" əlavə nüanslarla arqumentləşdirilə bilər. Bü cür yanaşma aktorların qüvvələr nisbətindəki xüsusi çəkisinin azalmasına gətirib çıxarır. O ki, qaldı "suverenlikdən kənar aktorların" tarazlıq amili olaraq sistemdaxili münasibətlərə modifikasiyası məsələsinə qeyd etmək lazımdır ki, bu, bütün hallarda beynəlxalq münasibətlərin xarakteri ilə şərtlənir. Yəni qüvvələr balansı "sanitar kordon" rolunu ifa etməklə, maraqların differensiasiyasına rəvac verir.

Analoji fikri beynəlxalq münasibətlər sahəsində tanınmış mütəxəssis olan J.-B. Dyurozel də bölüşür. O, konseptual-elmi əhəmiyyət kəsb edən belə bir prinsipial məsələdə haqlıdır ki, "obyektiv milli maraqların müəyyən olunması mümkünlüyünün mövcudluğu, əlbəttə, yaxşı hal hesab edilməlidir. Məhz onda siyasi liderlərin təklif etdikləri ənənəvi paradiqmalar kontekstində milli maraq anlayışının intepretasiyası mümkünsüzdür»[31]. Deməli, belə hesab etmək olar ki, beynəlxalq aktorların fəaliyyətinin sövq-vadaredici motivi mənafelər deyil, məhz "milli identiklikdir"[32]. Təbii ki, söhbət ilk növbədə, milli birliyin təməl daşı olaraq dildən, mədəni-tarixi dəyərlər və milli-tarixi yaddaşdan gedir. Bu mənada, həmçinin patriotizm ilə pasifizm, antikolonial ekspansiya ideologiyası ilə müstəmləkiçilik siyasətinin əsasında duran "sivilizator missiyası" ideyası arasında tarixən qərarlaşmış tərəddüd ənənələri nəzərə alınarsa, deyək ki, Fransanın xarici siyasi davranışı bütövlükdə aydınlaşar. Öz növbəsində, "bani-atalar"ın izolyasionizm doktrinası ilə intervensionizm ideyası – Amerika dövlətinin, burjuaziyasının və milliətçiliyinin geosiyasi-ideoloji kredosunun iki vacib meyar-kriteriumu zəminində təşəkkül tapmış baxışlar Birləşmiş Ştatların beynəlxalq arenada fəaliyyətinin izahında açar rolunu oynaya bilər[33].

Həqiqətən, mədəni-tarixi ənənələr və milli dəyərlər olmadan bu və ya digər dövlətin xarici siyasətinin və ümumilikdə, beynəlxalq münasibətlərin şərhi natamam və elə bu səbəbdən də yanlış hesab edilə bilər. Milli identikliyi milli maraqlara qarşı qoymağın qəti əleyhdarı olan

30 Derriennic J.-P., Esquisse de problematique pour une sociologie des relations internationales. Grenoble, 1977, p. 26.
31 Duroselle J.-B., Tout empire perira. Une vision theorique des relations internationales. Paris, 1982, p. 88.
32 Merle M., La politique etrang, re//Traite de science politique. Paris, pp. 473-474; 522.
33 Yenə orada, p. 474.

H.Morgentau belə bir həqiqəti xüsusilə vurğulayır ki, «kimlik» ideyası milli maraqların ayrılmaz tərkib elementidir[34].

"Kimlik" anlayışının cəmiyyətdə, siyasətdə və müxtəlif elmlərdə (psixologiya, sosiologiya, politologiya, geopolitika) mühüm rolu vardır. Bu, fərdin və ya sosial qrupun mənsubiyyətini ifadə edən amildir. Eyni zamanda, kimlik cəmiyyətdə insanlararası münasibətlərdə həlledici rol oynayır və siyasi mübarizəni bu istilahsız təsəvvür etmək mümkün deyildir (məsələn, ideoloji etiketlər: sağ, sol, millətçi, demokrat, sosialist, liberal və s.; dini kimliklər: müsəlman, xristian, budist, konfutisçi və s.).

"Kimlik" anlayışının nəzəri-konseptual əsasına gəldikdə, bu sahədə müxtəlif fikirlər mövcuddur. Bəzi tədqiqatçılar kimliyi "subyektiv şəxsi vəhdət və zaman ardıcıllığı hissi" kimi qiymətləndirirlər. Freyd konsepsiyasında identiklik quruculuğu konflikt vasitəsilə həyata keçirilir. Söhbət "O" və "Mən" və "Fovqəlmən" arasında, "özü üçün kimlik" və «başqası üçün kimlik» arasındakı münaqişələrdən gedir. Hər iki fikirdə identiklik quruculuğu bir proses kimi qəbul edilir.

Hegel ənənəsində identiklik "Mən" və "Başqası"nın bir-birini qarşılıqlı tanıması prosesi nəticəsində yaranır. Bu münaqişəli prosesdə müəyyən fərdlərarası münasibətlər, sosial praktikalar və subyektiv təsəvvürlər meydana çıxır. Genetik psixologiya nümayəndələrinin (Jan Piaje) fikirincə isə, sosial davranışların ötürülməsi və şüurlu təsəvvürlərin yaranması ilə müşayiət olunan identiklik quruculuğu həm koqniktiv (şüurlu), həm affektiv (emosional), həm də ekspressiv (ifadəli) prosesdir. Fərd dilin köməyilə başqaları ilə ünsiyyətə girməyə, özünün mənsubiyyətini müəyyənlişdirməyə imkan verən qaydalar, dəyərlər və işarələr sistemini mənimsəyir.

Bu deyilənlərə sosiologiyada rəmzi interaksionizm cərəyanının etiket nəzəriyyəsini də əlavə etmək lazımdır. Bu nəzəriyyəyə görə, kimliyin verilməsi prosesinə əsas diqqət verilir. Beləliklə, identiklik həm etiketlər və statuslar vasitəsilə verilmiş (başqası üçün kimlik) və həm də mənsubiyyət hissi ilə qəbul edilmiş (özü üçün kimlik) olur.

«İdentiklik» anlayışı fərdlər arasında ümumi və daimi elementləri təsdiq edən və onları fərqləndirən elementləri arxa plana çəkən təsəvvür quruculuğu prosesiylə də sıx bağlıdır. Və bu anlayış müxtəlif səviyyələrdə mövcud ola bilər (milli kimlik, etnik kimlik, dini kimlik, sinfi kimlik, siyasi kimlik və s.).

Kommunist sisteminin çöküşü milli, etnik və dini kimlik problemlərini ön plana çıxarıb. Başqa sözlə, bu problemlərin yaranmasında əsas amil meydana gəlmiş ideoloji vakuumdur. Ancaq insanlar bu durumu qəbul etmirlər, onlar hansısa real və ya abstrakt bir qrupa, birliyə mənsub olmalı, mənsub olduqlarını bilməli, hiss etməli və bildirməlidirlər. Məhz buradan da kimlik axtarşı başlayır və bu axtarış zamanı tarixə qayıdış zəruridir. Çünki hara getdiyini bilmək üçün haradan gəldiyini bilməlisən.

İdentiklik quruculuğu təsəvvürlərin yaradılması prosesiylə sıx bağlıdır. Ona görə də bu məsələdə müəyyən problemlər yaranır. İdentiklik axtarışı prosesinin bir nümunəsi kimi hazırda Rusiyada (həmçinin postsovet məkanında) gedən mədəni-siyasi diskussiyaları göstərmək olar. Bu gün rus ictimai-siyasi fikirində Rusiyanın Avrasiya, yoxsa Avropa dövləti olması barədə ciddi müzakirələr gedir. Bu müzakirələr bir növ XIX əsrin ortalarında slavyanofillərlə qərbçilər arasında gedən polemik mübahisələrin başqa formada davamıdır. XIX əsrin sonları və XX əsrin əvvələri Osmanlı imperiyasında da ölkənin perspektiv inkişafı və kimlik axtarışı ilə bağlı ciddi müzakirələr gedirdi. Bu müzakirələr zamanı osmanlıçılıq, islam birlikçiliyi və türkçülük cərəyanları mühüm rol oynayırdı.

Kimliyi ifadə edən iki əsas amil mövcudur: ümumi tarix və ümumi dil. Dilin daxili strukturu o dildə danışan insanın, xalqın xarakterinə müəyyən təsir göstərir.

Milli (və ya etnik) xarakter məsələsinə gəldikdə, qeyd etmək lazımdır ki, bu

34 Morgenthau H., göstərilən əsər, pp. 3-12.

etnopsixologiyada və sosial psixologiyada ciddi araşdırılan problemdir. Hətta H. Morgentau milli xarakteri ölkənin milli gücünün bir elementi kimi göstərir.

Milli güc isə kifayət qədər tutumlu anlayış olaraq, milli maraqları təmin etmək məqsədilə istifadə olunan bütün maddi və mənəvi amillərin məcmusunu özündə əks etdirir.

Maraq anlayışının əsasını obyektiv tələbatlar, subyekt və sosial icmanın iqtisadi, ictimai, siyasi və digər amillərlə şərtlənən ehtiyacları təşkil edir. Sosial tələbatların dərki prosesi insanların maraqlarının formalaşmasına rəvac verir[35]. Bu isə o deməkdir ki, maraq obyektiv və subyektiv səciyyəli kateqoriyadır.

Artıq qeyd olunduğu kimi, başlıca və daimi milli maraqlar mühüm geosiyasi parametrlər vasitəsi ilə, yəni dövlətlərarası münasibətlər sistemində dövlətin yeri və rolu, onun nüfuzu və hərbi gücü, öz suverenliyini qoruyub saxlaya bilməsi və müttəfiqlərinin təhlükəsizliyinə təminat vermək iqtidarında olması ilə müəyyənləşdirilir.

Hər bir dövlət qarşıda duran məqsədlərinə özünəməxsus baxış bucağından yanaşır. Həmin məqsədlərin gerçəkləşdirilməsi bir çox amillərdən, o cümlədən də dövlətin geosiyasi durumu, tarixi, mədəniyyəti, siyasi sistemi, rəhbərliyi, digər dövlətlərlə əlaqələrinin xarakteri və s. daxil olmaqla, böyük bir sistemin həyat-yaşam tonusundan asılıdır[36].

Dövlət öz maraqlarını təmin etmək üçün sərəncamında olan bütün hərbi, siyasi, ideoloji, iqtisadi və diplomatik vasitələrdən istifadə edir.

İkinci dərəcəli və dəyişkən maraqlar törəmə səciyyəlidir. Xarici siyasi faktorlardan asılı olaraq, onlar başlıca və daimi maraqların həyata keçirilməsində bir mərhələ rolunu oynayırlar[37]. Və sözsüz ki, bütün maraqları tam şəkildə təmin etmək mümkün deyildir.

«Milli maraq» anlayışının strukturunda üç əsas elementin, yəni üst-üstə düşən, bir araya sığmayan və kəsişməyən maraqların fərqləndirilməsi məqsədəmüvafiq hesab edilir[38]. Ayrılıqda götürdükdə onlardan hər biri qarşılıqlı əlaqələrin müəyyən modelinə uyğun gəlir: üst-üstə düşən maraqlar (concurring interests) "xalis şəkildə" münasibətlərin "ideal" kooperativ modelini, bir araya sığmayan maraqlar (opposing interests) son dərəcədə ziddiyyətli münasibətləri, kəsişməyən maraqlar (contending interests) isə bitərəflik sindromunu irəlicədən müəyyən edir.

Maraqların hər üç tipi münasibətlər sisteminin prioritet xarakterinə adekvat təsir göstərməklə əslində, həmişə birgə mövcud olur və eyni vaxtda fəaliyyət göstərirlər. Lakin analitik məqsədlər üçün onların differensiasiyası və qarşılaşdırılması mümkündür ki, bu da öz növbəsində, maraqlar balansının mümkün parametrlərinin müəyyənləşdirilməsi baxımından zərurət təşkil edir.

Yeri gəlmişkən, maraqlar balansı dedikdə, öz təminatını tapmış mənafelərin tarazlığı, başqa sözlə, hər hansı bir məhdudlaşdırmaya məruz qalmayan və paralel olaraq təmin edilən maraqların balansı nəzərdə tutulur. Təbii ki, üst-üstə düşən maraqlara münasibətdə bu səpkili problem meydana çıxmır: onlar mahiyyət etibarilə oxşar olmaları səbəbindən bərabər səviyyədə təmin edilə bilirlər.

Böyük əksəriyyət təşkil edən dövlətlərin üst-üstə düşən maraqlarına, məsələn, beynəlxalq əlaqə və kommunikasiya sistemlərinin mövcüdluğu sahəsində, beynəlxalq ticarətin inkişaf etdirilməsində, beynəlxalq norma və adətlərə əməl edilməsi prosesində meydana çıxan ümumi-ortaq maraqlar daxildir[39]. Xüsusi kazusun, yəni hansısa ümumi təhlükənin aradan qaldırılmasında ona xrestomatik nümunə olaraq, İkinci dünya müharibəsi illərində faşist Almaniyası və onun satellitlərindən ibarət təcavüzkar bloka qarşı mübarizə aparan hərbi- siyasi ittifaqa – antihitler koalisiyasına – daxil olan dövlətlərin birgə fəaliyyətini göstərmək olar. Lakin burada

35 Цыганков П.А., Международные отношения. М., 1996, с. 195.
36 Гаджиев К. С., göstərilən əsər. с. 353.
37 Yenə orada.
38 Удаков В.В., Баланс сил и баланс интересов. Международная жизнь, 1990, №5, с. 19-20.
39 Yenə orada, с. 2.

söhbət ümumi, vahid maraqdan deyil, məlum qarşılıqlı əlaqənin iştirakçılarının konkret situasiya kontekstində analogiya təşkil edən individual maraqlarından gedir.

Beynəlxalq aləmdə dövlətin öz maraqlarını qoruya bilməsi və məqsədlərini həyata keçirmək iqtidarında olması onun potensial və real gücü ilə şərtlənir[40].

Hər hansı normanı, dəyəri beynəlxalq münasibətlərin inkişafının hərəkətverici qüvvəsi hesab edən "idealistlərdən"[41] fərqli olaraq, "siyasi realistlər" "güc" kateqoriyasına mühüm əhəmiyyət verirlər. Bu nəzəriyyəyə görə, beynəlxalq siyasət güc və hakimiyyət uğrunda mübarizədir[42]. Yəni hər hansı dövlətin güc toplamaq, gücü qorumaq, çoxaltmaq, dünyada hegemon mövqe tutmaq arzusu beynəlxalq münasibətəlrin inkişafına təsir göstərən ən mühüm amildir. Bunlara müvafiq olaraq dünyada yaranan müxtəlif güc mərkəzləri arasındakı rəqabət beynəlxalq siyasətin tərkib hissəsidir. Və bu güc mərkəzləri arasında yaranan "qüvvələr tarazlığı" sistemi də beynəlxalq münasibətlər sisteminin həm sabitliyini, həm də inkişafını təmin edir[43]. Təbii ki, güc mübarizəsi sayılan beynəlxalq siyasətdə ideoloji amilin də rolu böyükdür. Belə ki, gerçək siyasətin pərdələnməsində və kütlələrin şüuruna təsir edilməsində ideoloji amil mühüm əhəmiyyət kəsb edir. Ümumiləşdirilmiş formada desək, həm daxili, həm də beynəlxalq siyasətin ən səciyyəvi xüsusiyyəti ondadır ki, siyasətin ifadə edilən mahiyyəti ilə gerçək mahiyyəti bir-birindən fərqlənir.

Milli güc dövlətin milli məqsədlərinə çatmaq və milli maraqlarını təmin etmək məqsədilə istifadə olunan bütün maddi və mənəvi amillər, bunların idarə olunması və reallaşdırılması bacarığının məcmusudur. Milli gücün elementlərinin müəyyən edilməsində müxtəlif yanaşmalar mövcuddur. Ən geniş yayılanı H. Morgentaunun yanaşmasıdır. O, milli gücün aşağıdakı elementlərini ayırır: – coğrafiya; – təbii ehtiyatlar; – sənaye qabiliyyəti; – hərbi hazırlıq; – əhali; – milli xarakter; – milli rüh yüksəkliyi; – diplomatiyanın keyfiyyəti; – hökumətin keyfiyyəti[44].

Çox vaxt isə müxtəlif yanaşmaları ümumiləşdirərək milli gücün ünsürləri aşağıdakı qaydada təsbit olunur: – siyasi güc; – iqtisdi güc; – hərbi güc; – demoqrafik güc; – coğrafi güc; – elmi-texniki güc; sosial-psixoloji və mədəni güc.

Siyasi güc dövlətin idarəetmə sistemi və hakimiyyət mexanizmi ilə sıx bağlı olub, həm daxili, həm də xarici siyasətdə milli strateji hədəflərə çatmaq üçün ümummilli gücü stimullaşdıran mühüm vasitə rolunu həyata keçirir.

İqtisadi güc təkcə mineral xammal mənbələrinin çoxluğu ilə deyil, həm də iqtisadi təşkilatlanmanın kamilliyi və sivil iqtisadi münasibətlər sisteminin varlığı, hərtərəfli iqtisadi təfəkkürə malik yetkin milli kadrların mövcudluğu, qabaqcıl texnologiyaya əsaslanan sənaye və s. ilə bağlıdır.

Hərbi güc yüksək döyüş ruhuna və hərtərəfli hazırlığa malik ordu, mükəmməl hərbi mexanizm, dövrün tələblərinə uyğun hərbi-sənaye kompleksi, həm adi, həm də müasir elektron silahlara malik olma ilə şərtlənir.

Demoqrafik güc ölkə əhalisinin sayı, təbii artım səviyyəsi, yaş qruplarının nisbəti və digər məsələlərlə bağlıdır və iqtisadi gücün təməl ünsürlərindən sayılan əmək faktorunun təminatçısı hesab edilir.

Coğrafi güc dedikdə, bir tərəfdən, ölkənin fiziki coğrafiyaya görə mövqeyi, digər tərəfdən isə, onun dünyadakı siyasi qütbləşməyə, qruplaşmalara, güc mərkəzləri ilə hərtərəfli münasibətlərinə görə oriyentasiyası nəzərdə tutulur.

Sosial-psixoloji və mədəni güc milli-mənəvi və əxlaqi dəyərlərlə, milli xarakter və psixologiya ilə əlaqədar olub, digər milli güc növlərinin formalaşmasına ciddi təsir göstərir.

Onu da qeyd edək ki, dövlətin milli gücünün formalaşdırılması zamanı bu ünsürlər arasında

40 Поздняков З.А., Внешнеполитическая деятельность и межгосударственные отношения. М., 1986, с. 135.
41 Цыганков П.А. göstərilən əsər. с. 19.
42 Morgenthau H., göstərilən əsər, p. 92.
43 Киссинджер Г., Дипломатия. М., 1997, с. 737.
44 Morgenthau H., göstərilən əsər, p. 115.

qarşılıqlı əlaqələrin yaradılmasına xüsusi diqqət verilməlidir. Bu isə ölkənin beynəlxalq arenada prioritet məqsədinin – milli təhlükəsizliyin təmin edilməsi baxımından zərurət təşkil edir.

R. Aronun davamçılarından olan Rober Bosk milli gücü öz məqsədlərini həyata keçirmək üçün dövlətin sərəncamında olan resursların məcmusu şəklində dəyərləndirir. Onun fikrincə, bu resurslar fiziki və mənəvi amillərlə şərtlənir. Onların tədqiqi və öyrənilməsi xarici siyasətin üstün istiqamətlərinin formalaşdırılması və bütövlükdə, diplomatiyanın keyfiyyət əmsalının yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Diplomatiyanın səmərəliliyi onun milli maraqlara necə xidmət etməsi ilə ölçülür.

Müasir dövrdə diplomatiya keyfiyyətcə yeni cizgi və forma kəsb etməyə başlamışdır. Onun fəaliyyət sahəsinə beynəlxalq əməkdaşlığın yeni-yeni istiqamətləri daxil olur ki, bunlar da yeni qlobal təhlükə və çağırışlara cavab vermək zərurəti ilə bağlıdır. Lakin əsl peşəkar və səmərəli diplomatiya yalnız o zaman mümkündür ki, tarixi təcrübənin sınaqlarından keçmiş ənənə və dəyərlərin möhkəm zəminine istinad edir.

Xarici siyasətin uğuru milli maraqların həm dürüst və qəti şəkildə ifadə olunmasından, həm də onun həyata keçirilməsinin üsul və vasitələrinin aydın dərkindən eyni dərəcədə asılıdır. Artıq qeyd olunduğu kimi, dövlətin beynəlxalq aləmdə prioritet məqsədlərinin önündə ölkənin təhlükəsizliyinin və ya milli təhlükəsizliyin təmin olunması məsələsi durur. Daxili və xarici siyasət fəaliyyətində mühüm determinant olaraq gerçəkləşdirilən milli təhlükəsizlik şəxsiyyətin, cəmiyyətin mövcudluğu və inkişafı üçün optimal şəraitin yaradılması üzrə effektiv çalışmaları təmin edən sosial institutların vəziyyətini səciyyələndirir.

İlk dəfə olaraq "milli təhlükəsizlik" anlayışı 1904-cü ildə prezident T.Ruzveltin ABŞ Konqresinə ünvanlanmış müraciətində işlədilmişdir. Bu sənəddə prezident Panama kanalı zonasının birləşdirilməsini ölkəsinin "milli təhlükəsizlik" mənafeləri ilə əsaslandırırdı. Sonrakı illərdə bu məsələ Amerika politoloqlarının tədqiqatlarında mərkəzi problemə çevrildi. Amerika müəllifləri "milli təhlükəsizlik" anlayışının mənbəyini "milli mənafelər" nəzəriyyəsində görürlər. Məhz bu cür yanaşma sosioloq U. Lippman tərəfindən təklif olunmuşdur. Tədqiqatçıların əksəriyyəti milli təhlükəsizliyi güc vasitəsilə, yəni bir dövlətin başqa dövlətlərə nisbətən üstün qüdrətə malik olması kontekstində, ya da dövlətlərin qarşılıqlı fəaliyyəti mövqeyindən, başqa sözlə desək, bütün beynəlxalq münasibətlər sisteminin inkişafı üçün optimal şəraitin yaradılması zəminində fiksasiya edirlər. B.Broudi, H.Morgentau, C.Şlessincer və başqaları milli təhlükəsizlik problemi ilə məşğul olan ən görkəmli müəlliflərdir.

Milli təhlükəsizlik "sabit sosial-siyasi, iqtisadi, mədəni və başqa əlaqələrə əsaslanan müəyyən ərazi-dövlət birliyi", yəni təhlükəsizlik ilə millət arasında əlaqəni əks etdirir. Bu halda millətin tərkibinə çoxlu milliyyətlər daxil edilə bilər; bunlar da özlərinin adət-ənənə və mədəniyyətləri ilə birlikdə insanların etnik birliyini təmsil edir. Bu baxımdan milli təhlükəsizlik millətin vəziyyətini bütöv sistem kimi xarakterizə edir. Həmin sistemə ictimai münasibətlər və ictimai şüur, sosial institutlar və onların konkret tarixi situasiyada milli mənafelərin reallaşmasına imkan verən və ya mane olan fəaliyyəti daxil edilir. Milli mənafelərin mahiyyəti ilk növbədə, ondan ibarətdir ki, cəmiyyətin daxilində və ya ondan kənarda yaranan destruktiv tendensiyaların qarşısı alınsın. Belə ki, bu cür hərəkətlər şəxsiyyətin, cəmiyyətin həyat-yaşam modusu və inkişafının tələbatlarına maneə yaradır.

Milli təhlükəsizlikdə üç səviyyə ayrılır: şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyi. Onların yeri və rolu ictimai münasibətlərin xarakteri, siyasi quruluş, daxili və xarici təhlükələrin dərəcəsi ilə müəyyən olunur. Millət üçün böhranlı dövrlərdə cəmiyyətin və ya dövlətin təhlükəsizliyi prioritet təşkil edə bilər. Bir qayda olaraq, belə kritik şərait yaradan rejimlər şəxsiyyətin təhlükəsizliyi hesabına dövlətin təhlükəsizliyini ön plana çəkirlər. Demokratik cəmiyyətlər üçün isə şəxsiyyətin azadlığı və təhlükəsizliyi məqsəd deyil, şəxsiyyətin azadlığının və təhlükəsizliyinin təmin edilməsi funksiyasıdır.

Məzmun baxımından milli təhlükəsizlik müxtəlif sahələrə, struktur elementlərinə bölünür. Bu elementlərə ilk növbədə, aşağıdakılar aiddir: -siyasi təhlükəsizlik; -iqtisadi təhlükəsizlik; -hərbi təhlükəsizlik; -ekoloji təhlükəsizlik; -informasiya təhlükəsizliyi; -millətin mədəni inkişafının təhlükəsizliyi.

Milli təhlükəsizlik konsepsiyasının geosiyasi aspektlərini dövlətin fiziki mövcudluq modusu, özünün suverenlik və ərazi bütövlüyünü qoruyub saxlaması, istənilən real və potensial xarici təhlükəyə adekvat cavab vermək iqtidarı təşkil edir.

Milli təhlükəsizlik konsepsiyasının ayrı-ayrı elementlərinə siyasi fikir tarixinin müxtəlif dönəmlərində təsadüf olunsa da, sözü gedən konsepsiya müfəssəl şəkildə sosioloq U. Lippman tərəfindən işlənib hazırlanmışdır.

Geopolitik və xarici siyasət konsepsiyaları kimi, milli təhlükəsizlik konsepsiyası da milli maraqlar zəminində intişar tapmaqla, əslində, hər bir vətəndaşın öz dövlətinin beynəlxalq birlikdəki yeri və rolu məsələsinə xüsusi münasibətini əks etdirir. Milli təhlükəsizlik konsepsiyası daxili və xarici təhlükə mənbələri nəzərə alınmaqla formalaşdırılır.

Bir qayda olaraq, real və potensial səciyyə daşıyan qlobal, regional və lokal təhlükələr fərqləndirilir. “Təhlükəsizlik” anlayışı aşağıdakı nüansları özündə ehtiva edir:

– dövlətin öz fiziki varlığını, ərazi bütövlüyü və toxunulmazlığını xarici və daxili təhlükələrdən qoruya bilmək iqtidarında olması;

– daxili işlərə xarici müdaxilənin neytrallaşdırılması;

– dövlətin həyat tərzini və fəaliyyət qabiliyyətini təhdid edən potensial və öncədən proqnozlaşdırılması çətin olan təhlükələrin qarşısının alınması.

«Təhlükəsizlik» anlayışı özünün ifrat anlamında dövlətin fiziki varlığının təmin olunmasının sinonimi olaraq çıxış edir. Dövlətlərarası münasibətlər kontekstində dövlətin fiziki varlığı xalqın ümumi həyat tərzini xarakterizə edən ümumi dəyərlər sisteminin daşıyıcısı və realizatoru olaraq, milli dövlətin qoruyub saxlanmasını ifadə edir. Fiziki varlığın qorunub saxlanmasına yönəlik məqsədlərin, dəyərlər sistemini inkar etsə də, xarici siyasi qərar qəbul edən şəxs tərəfindən dövlət üçün raison d’etre (mövcudluğun qayəsi) qismində dəyərləndirilən vasitələrin köməyilə həyata keçirməsi qeyri-mümkündür.

Milli təhlükəsizlik probleminin tədqiqat sahəsi milli dövlətlərin qüdrətlənməsinə istiqamətlənmiş siyasi kursu və onun vasitə, forma və yollarını əhatə edir.

Milli təhlükəsizlik konsepsiyasının başlıca vəzifəsi daxili və xarici təhlükələrin qarşısını almaq məqsədilə prioritet istiqamətlərin müəyyənləşdirilməsi və işlənib hazırlanmasından, habelə genişmiqyaslı tədbirlər planının həyata keçirilməsinə imkan verən resursların səfərbər olunmasından ibarətdir.

Milli təhlükəsizlik dövlətin geosiyasi maraqlarının reallaşdırılmasına imkan verən amilləri özündə əks etdirir. Milli təhlükəsizliyin qeyd olunan aspekti həm də millətin özünüqoruma duyğuları və dövlətçilik təfəkkürü ilə səciyyələnir. Postbipolyar dünya nizamı şəraitində və prinsipcə yeni dövlətlərarası münasibətlər sistemi kontekstində bunlar daha aydın sezilməkdədir.

Beləliklə, dövlətlərarası münasibətlər sistemi nə qədər nəhəng sosial orqanizm kimi fəaliyyət göstərsə də, aktorların milli maraqlarında mütləq əbədi tarazılq yarada bilmir. Milli maraq dövlət və dövlətlər qrupunun daxili və xarici siyasi fəaliyyət platforması, onun dövlətlərarası münasibətlərdə fəaliyyət və davranış dərəcəsini, həmçinin bütün zəruri güc mənbələrini müəyyən edən rasional sistemdir. O, yalnız «ratcio» formasında dərk edilə və ictiami münasibətlərə tətbiq oluna bilər. «Siyasi realizm» məktəbinin görkəmli nümayəndəsi Raymon Aron haqlı olaraq milli marağı dövlətin milli məqsədləri ilə bağlayır və bu məqsədləri abstrakt və konkret təsnifata ayırır. Buradan göründüyü kimi, milli maraq nəinki dövlətin daxili və xarici tələbatlarını, hətta onların gerçəkləşmə yollarını və vasitələrini də ortaya qoyur.

Müasir beynəlxalq münasibətlərdə gedən köklü dəyişikliklər şəraitində Azərbaycanın milli maraqları ölkədə vətəndaş cəmiyyətinin qurulmasını, iqtisadiyyatın modernləşdirilməsini və

səmərəli dövlətçiliyin qurulması istiqamətində varisliyin saxlanılmasını zəruri edir. Belə ki, yalnız Heydər Əliyev kursuna varislik Azərbaycanı səmərəli dövlətçiliyə – siyasətin milli mənafelərin möhkəm zəmininə əsaslandığı, insan hüquq və azadlıqlarının ictimai inkişafda üstün yer tutduğu, iqtisadiyyatı sabit və möhkəm olan, partiya əməkdaşlığı ruhunun vətəndaş konsensusunun əsası olduğu dövlətə aparmağa qadirdir. Azərbaycan xalqı Heydər Əliyevin siyasi kursuna alternativ görmədiyi kimi, bu strategiyanı uğurla davam etdirəcək siyasi xadimi də haqlı olaraq onun komandasında müəyyənləşdirib. Və sözsüz ki, bu inam məhz İlham Əliyevin fəaliyyətinə nəzərən formalaşıb. Cəmiyyətdə belə bir rəy mövcuddur ki, İlham Əliyev Azərbaycan xalqının tarixinə qızıl səhifələr yazan, əbədi uğurlar qazandıran atasının – dahi dövlət və siyasət xadimi Heydər Əliyevin müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin edə biləcək alternativsiz siyasətçidir. Onun siyasi və diplomatik fəaliyyəti bu mülahizələrin üstündə israrla dayanmağa əsas verir. İlham Əliyev müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsində, bugünkü demokratik, hüquqi və dünyəvi Azərbaycan dövlətinin qurulmasında yaxından iştirak edib, dahi Heydər Əliyevin ən yaxın silahdaşı olub. O, bu missiyanı bu gün də uğurla davam etdirir. Şübhə yoxdur ki, İlham Əliyev müstəqil Azərbaycanın prezidenti kimi bu istiqamətdə öz doğma xalqına daha böyük uğurlar qazandıracaqdır.

## *NATO: Dünən və bu gün*

**Səadət Rəhimli**[45*]

Sovet İttifaqının dağılması və bunun ardınca Varşava Müqaviləsinin iştirakçısı olan ölkələr təşkilatının parçalanması, Qərblə Şərq arasında siyasi, ideoloji və hərbi qarşıdurmanın başa çatması NATO-ya Avroatlantika məkanında təhlükəsizliyin müdafiəçisi kimi əvvəlki funksiyasını saxlamaqla yanaşı, öz strategiyasını dəyişmək və transformasiya olunmaq imkanı yaratdı. Nəticədə NATO-ya qarşı irəli sürülən tələblərin mahiyyəti əsaslı şəkildə dəyişdi.

NATO 1949-cu ildə «Şərqdən hücum təhlükəsi» ilə əlaqədar təşviş və vahimənin gücləndiyi bir şəraitdə yaranmışdır. Qərbi Avropa ölkələri və onların Şimali Amerikadakı müttəfiqləri 1945-ci ildən 1949-cu ilədək olan dövrdə təxirəsalınmaz iqtisadi bərpa işləri ilə məşğul olmaqla yanaşı, SSRİ-nin təcavüzkar siyasətini narahatlıqla izləyirdilər. Müharibə dövründə silahlı qüvvələrin tərxis olunması ilə bağlı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirən Qərb dövlətləri sovet rəhbərliyinin öz silahlı qüvvələrinin sayını tam heyətdə saxlamaq niyyətində olmasından böyük həyəcan hissi keçirirdi[46]. Bundan əlavə, Sovet İttifaqı Kommunist Partiyasının bəyan etdiyi ideoloji məqsədlərin işığında aydın görünürdü ki, müharibədən sonra BMT Nizamnaməsinə və əldə olunan beynəlxalq müqavilələrə riayət edilməsinə çağırışlarla xarici təcavüz və ya daxili təxribat fəaliyyəti təhlükəsi ilə üzləşən demokratik dövlətlərin milli suverenliyini təmin etmək qeyri-mümkündür. Mərkəzi və Qərbi Avropanın bir sıra ölkələrində idarəçiliyin qeyri-demokratik formalarının həyata keçirilməsi və müxalifətin əzilməsi, insan hüquq və azadlıqlarının kobud şəkildə pozulması yeni manеələr ortaya çıxarırdı.

Müharibədən sonra Sovet İttifaqı rus işğalı zonasında kommunist və ruspərəst elementlərin səfərbər edilməsi yolu ilə Avropa ölkələrinə «kommunizmin ixracı»nı planlaşdırırdı. Sovet qoşunları tərəfindən faşist işğalından azad edilmiş Mərkəzi və Şərqi Avropa ölkələrində artıq bu proses başlanmışdı. Bir qayda olaraq, müxtəlif siyasi görüşlərə və fikir plüralizminə dözümlülüklə yanaşan Fransa və İtaliya sovetləşmə təhlükəsi qarşısında idi. Hər iki ölkədə kommunist partiyaları böyük nüfuza malik idi və parlament seçkilərində səslərin mühüm hissəsini qazandıqları bir zamanda Stalin ümumdünya kommunist inqilabı tezisini utopiyadan



45 Azərbaycan Repsublikası Prezidentinin İcra Aparatının Xarici Əlaqələr Şöbəsinin baş mütəxəssisi, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının aspirantı.
46 Jawrence S. Kaplan, NATO and United States, 1994, p.15.

reallığa çevirməyə çox yaxınlaşmışdı. Avropa Bolqarıstan, Rumıniya, Yuqoslaviya, Macarıstan, Çexoslovakiya, Polşa, Almaniya, Avstriya, İtaliya və Fransanı özündə birləşdirəcək zolaq daxilində Sovet İttifaqının təsir dairəsinə çevrilmək təhlükəsi qarşısında qalmışdı. 1947 – 1949-cu illərdə baş vermiş bir sıra təşvişdoğurucu siyasi hadisələr vəziyyəti daha da gərginləşdirdi. 1948-ci ildə Çexoslovakiyadakı çevriliş, həmin ilin aprel ayında Qərbi Berlinin qanunsuz blokadaya alınması və Norveç, Yunanıstan, Türkiyə və digər Qərbi Avropa ölkələrinin suverenliyinə SSRİ-nin yaratdığı təhlükə və həmin təhlükənin Sovet İttifaqına xas işğalçılıq cəhdləri sayəsində və müvafiq metodlarla qızışdırılması bu qəbildəndir. Məhz belə bir şəraitdə 1948-ci ilin mart ayında Qərbi Avropanın beş dövləti – Böyük Britaniya, Fransa, Belçika, Lüksemburq və Niderland Brüssel Müqaviləsini[47] imzalayaraq özlərinin təhlükəsizliyi üçün yarana biləcək ideoloji, hərbi və siyasi təhlükənin qarşısını birgə səylərlə almaq üçün ümumi müdafiə sistemi yaratmaq niyyətində olduqlarını nümayiş etdirdilər. Avropa və Şimali Amerika arasında qarşılıqlı öhdəliklərə və təhlükəsizlik barədə zəmanətlərə əsaslanan Şimali Atlantika İttifaqının yaradılması məsələlərinə dair ABŞ, Kanada və Avropanın bir sıra ölkələri arasında danışıqlar məhz bu andan başlandı. Brüssel Müqaviləsini imzalamış dövlətlər Danimarkaya, İslandiyaya, İtaliyaya, Norveçə və Portuqaliyaya təklif etdilər ki, onlar da bu prosesə qoşulsunlar. Nəticədə 1949-cu il aprelin 4-də 12 Avropa və Şimali Amerika ölkəsi – ABŞ, Böyük Britaniya, Fransa, Kanada, İtaliya, Danimarka, İslandiya, Belçika, Lüksemburq, Niderland, Norveç və Portuqaliya Vaşinqtonda görüşərək Şimali Atlantika Müqaviləsi Təşkilatının – NATO-nun yaradılması barədə saziş imzaladılar və həmin vaxtdan etibarən bu dövlətlərin tərəfdaşlığına əsaslanan ümumi təhlükəsizlik sistemi fəaliyyətə başladı. Sonradan, 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə AFR[48] bu müqaviləyə qoşuldu. 1982-ci ildən isə İspaniya da bu müqavilənin iştirakçısı oldu. 1966-cı ildə Fransa Şimali Atlantika İttifaqının hərbi təşkilatını tərk edərək öz qoşunlarını NATO komandanlığından çıxarmış, blokun hərbi orqanlarındakı rəsmi nümayəndələrini geri çağırmış və İttifaq çərçivəsində hərbi məsələlərin müzakirəsinə etiraz etmişdir. 1974-cü ildə Yunanıstan Alyansdan çıxmış, lakin 1980-ci ildə geri qayıtmışdır. 1999-cu ildə NATO keçmiş sosialist düşərgəsinin üzvü olan Polşa, Çexiya və Macarıstanın da onun sıralarına daxil olması haqqında qərar qəbul etmişdir. 2004-cü ildən etibarən isə yeni yeddi üzvlə (Latviya, Litva, Estoniya, Slovekiya, Sloveniya, Bolqarıstan, Rumıniya) bərabər Alyans üzvü olan dövlətlərin sayı 26-ya catmis və təşkilatın əhatə zonası 593 min kvadrat kilometr genişlənmişdir.

NATO – BMT Nizamnaməsinin 51-ci maddəsinə (fərdi və kollektiv özünümüdafiə hüququ) uyğun olaraq yaradılmış, müstəqil dövlətlər arasında siyasi və hərbi əməkdaşlığa əsaslanan müdafiə ittifaqıdır. Vaşinqton Müqaviləsinin preambulasında təşkilat üzvlərinin demokratiya, insan hüquqları və qanunun aliliyinə əsaslanaraq öz xalqlarının azadlığı və mədəniyyətlərinin müdafiəsi yönündə səy göstərmələrinin zəruriliyi qeyd edilmişdir. Müqavilənin dördüncü maddəsi müttəfiqlərdən birinin ərazi bütövlüyü və siyasi müstəqilliyinə təhlükə yarandıqda üzv-dövlətlər arasında məsləhətləşmələrin aparılmasını nəzərdə tutur. Beşinci maddəyə görə isə, onlardan birinin üzərinə edilən silahlı hücum ümumilikdə İttifaqa qarşı hücum kimi qiymətləndirilir. Alyansda qərarlar üzv-dövlətlər arasında danışıq və məsləhətləşmələr əsasında qəbul edilir. NATO azad və müstəqil dövlətlərin beynəlxalq hökumətlərarası birliyidir və buna görə də dövlətlərüstü hakimiyyət səlahiyyətlərinə və müstəqil siyasət formalaşdırmaq funksiyalarına malik deyildir.

Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) Şimali Atlantika İttifaqının məqsədlərinə çatmaq üçün imkanlar yaradan struktura malikdir. Bu təşkilat çərçivəsində üzv-dövlətlər öz suverenliklərini və müstəqilliklərini bütövlükdə qoruya bilirlər. Sözügedən qurumun təmsil

47 1948-ci il Brüssel paktı (o, 1984-cü ildə yenidən nəzərdən keçirilmişdir) müharibədən sonrakı dövrdə Qərbi Avropanın təhlükəsizliyi sahəsində ilk addım idi və Qərb İttifaqının, habelə Brüssel Müqaviləsi Təşkilatının yaradılmasına gətirib çıxarmışdır. Bu, 1949-cu ildə Şimali Atlantika Müqaviləsinin və Şimali Atlantika İttifaqının yaradılması yolunda ilk addım idi. Brüssel sazişi müasir Qərbi Avropa İttifaqının təsis sənədidir. (müəllifin qeydi)

48 1990-cı ildə Almaniya birləşdikdən sonra birləşmiş ölkənin ayrılmaz tərkib hissəsi kimi.

olunduğu forumda onlar seçdikləri istənilən mövzulara dair birgə məsləhətləşmələr aparır və onların təhlükəsizliyi ilə əlaqədar siyasi və hüquqi məsələlərlə bağlı qərarlar qəbul edirlər.

Bütün bunların nəticəsində Şimali Atlantika İttifaqı üzvlərinin vəziyyətinin və hərbi potensialının müxtəlifliyinə baxmayaraq, Avropada ümumi sabitliyin yaranmasına yardım edən bərabər təhlükəsizlik hissi meydana çıxır. Bu, İttifaqın iştirakçıları arasında əməkdaşlığın inkişafı üçün, habelə onun üzvlərinin digər dünya ölkələri ilə əməkdaşlığı üçün əlverişli şərait yaradır.

Şimali Atlantika İttifaqının iştirakçı dövlətləri 200-dən artıq müxtəlif hərbi, siyasi və texniki şuradan, komissiya, komitə və ekspert qruplarından ibarət çoxşaxəli təşkilatlar şəbəkəsi yaratmışdır. Onların məşğul olduqları məsələlər ictimai həyatın bir çox sahələrini əhatə edir: ərzaq və xalq istehlakı mallarının istehsalı və bölüşdürülməsi, elm, texnika, ətraf mühitin qorunması, təbliğat, mülki müdafiə, silah istehsalı, hərbi doktrina və konsepsiyaların işlənib hazırlanması və s.

Şimali Atlantika Blokunun əsas orqanları – NATO Şurasının sessiyaları və Müdafiənin Planlaşdırılması Komitəsidir.

NATO-nun əsas rəhbər orqanı Şimali Atlantika Şurasıdır (ŞAŞ). ŞAŞ real siyasi hakimiyyətə və Alyans adından qəbul edilən bütün qərarlar üzrə səlahiyyətlərə malikdir. Həftədə bir dəfədən az olmamaq şərti ilə yığışan ŞAŞ üzv-dövlətlərin daimi nümayəndələrindən ibarətdir. Şura həmçinin, daha yüksək – xarici işlər nazirləri və ya hökumət başçıları səviyyəsində də yığıncaqlar keçirə bilər. Lakin bu zaman onun səlahiyyət və qərar qəbul etmə hüquqları əvvəlki səviyyədə qalmış olur və qərarlar da təmsil olunmanın səviyyəsindən asılı olmayaraq, eyni status və hüquqi qüvvəyə malik olur. Şura təşkilatın yeganə orqanıdır ki, onun səlahiyyətləri 1949-cu il Vaşinqton müqaviləsində dəqiq müəyyənləşmişdir[49].

NATO-nun strukturunun digər mühüm elementləri aşağıdakılardır: Hərbi Planlaşdırma Komitəsi; Nüvə Planlaşdırması Qrupu; NATO-nun baş katibi; Beynəlxalq Katiblik[50].

Hərbi Planlaşdırma Komitəsi (HPK) ŞAŞ tərəfindən hələ baxılmamış məsələlər üzrə NATO-nun hərbi orqanlarının işini istiqamətləndirir, kollektiv müdafiənin planlaşdırılması üzrə hərbi məsələ və problemlərin çox hissəsinin müzakirəsi ilə məşğul olur. Komitə daimi nümayəndələrdən ibarətdir və ildə ən azı iki dəfə onun müdafiə nazirləri səviyyəsində iclasları keçirilir. Bu orqanda Fransadan başqa bütün digər üzv-dövlətlər təmsil olunmuşdur. Bu ölkə 1966-cı ildən etibarən Şimali Atlantika Blokunun inteqrasiya edilmiş hərbi təşkilatından çıxmış, Alyansın hərbi orqanlarındakı rəsmi nümayəndələrini geri çağırmış və beləliklə də, İttifaq çərçivəsində hərbi məsələlərin müzakirəsində iştirakdan imtina etmişdir. HPK həmçinin, NATO-nun hərbi rəhbərliyi üçün müxtəlif direktiv-göstərişlər də hazırlayır. Bu orqan öz cavabdehliyində olan məsələlər üzrə müstəsna səlahiyyətlərə və Şimali Atlantika Şurasının daşıdığı funksiyalara malikdir.

Nüvə Planlaşdırması Qrupu (NPQ) müdafiə və təhlükəsizlik sahəsində NATO siyasətinin həyata keçirilməsində nüvə qüvvələri məsələləri üzrə məsləhətləşmələrin aparılması üçün əsas forumdur. Qrup öz iclaslarını bir qayda olaraq, ildə iki dəfə HPK-nın iclasları ilə eyni zamanda müdafiə nazirləri səviyyəsində, zəruri hallarda isə səfirlər səviyyəsində aparır. İslandiya qrupun iclaslarında müşahidəçi qismində iştirak edir.

Şimali Atlantika İttifaqında əsas səlahiyyətlər NATO-nun baş katibinə məxsusdur. Bu vəzifəyə üzv-dövlətlər beynəlxalq səviyyədə tanınmış dövlət xadimini irəli sürürlər. Baş katib Şimali Atlantika Şurasına, Hərbi Planlaşdırma Komitəsinə, Nüvə Planlaşdırması Qrupuna və digər əsas komitələrə rəhbərlik edir, həmçinin beynəlxalq aləmdə və üzv-dövlətlərin hökumətləri ilə münasibətdə alyansın ali nümayəndəsi qismində çıxış edir. Adətən NATO

49 Североатлантический Договор, статья 9.
50 Chapter 13: Key to the Principal NATO committees. NATO Handbook, 1998, <http://c.nato.int>.

silahlı qüvvələrinin ali baş komandanı amerikalı olduğundan baş katib vəzifəsinə avropalı təyin edilir. Baş katibin səlahiyyət müddəti prinsipcə məhdud deyildir.

NATO-nun Beynəlxalq Katibliyi üzv-dövlətlərin heyətlərindən təşkil olunur. Katibliyin əməkdaşları NATO Şurasında, komitələrdə və onların tabeçiliyindəki qruplarda işləyir, Şimali Atlantika İttifaqının fəaliyyətilə əlaqədar geniş məsələlərlə məşğul olur, üzv-dövlətlər arasında müzakirə və məsləhətləşmələr hazırlayır, zəruri tədbirlər həyata keçirir və qəbul edilmiş qərarları yerinə yetirirlər. Bunlara əlavə olaraq, ittifaqın rabitə və maddi-texniki təminat kimi ixtisaslaşdırılmış sahələrdə işləyən və NATO dövlətləri ərazisində yerləşən bir sıra mülki idarə və təşkilatları da vardır.

Bundan əlavə, NATO-nun mülki strukturuna aşağıdakı komitələr də daxildir: -Siyasi Komitə; -Atlantika Siyasəti üzrə Məsləhət Qrupu; -«Sülh naminə tərəfdaşlıq» proqramının hərbi-siyasi Komitəsi; -Kütləvi Qırğın Silahlarının Yayılmaması Problemləri üzrə Birləşmiş Komitə; -İqtisadi Komitə; -Standartlaşdırma üzrə NATO Komitəsi; -Rabitə və İnformasiya Sistemləri Komitəsi; -NATO-nun Boru Kəmərləri üzrə Komitəsi; -Müasir Cəmiyyətin Problemləri üzrə Komitə; -Hərbi Hazırlıq üzrə Komitə; -İnfrastruktur üzrə Komitə.

Şimali Atlantika İttifaqının hərbi strukturu ən yüksək səviyyədə siyasi nəzarət altında yerləşir. Hərbi strukturun əsas məqsədi alyansa üzv olan ölkələrin ərazilərinin təhlükəsizliyinin müdafiəsi üçün təşkilati əsasın yaradılmasından ibarətdir. Bu struktura, fəaliyyət zonası bütün Şimali Atlantika regionunu əhatə edən baş hərbi komandanlıqlar və NATO Birləşmiş Hərbi Strukturu (BHS) tərkibində komandanlıqlar sistemi daxildir. BHS silahlı qüvvələrin birgə təlimlərinin təşkilinin, rabitə və informasiya, hava hücumundan müdafiə, silahlı qüvvələrin maddi-texniki təchizatı sistemləri, metodika və texniki vasitələrin standartlaşdırılması, yaxud operativ uyğunlaşdırılması kimi sahələrdə əməkdaşlığın özəyidir.

NATO-nun hərbi strukturunun əsas elementləri aşağıdakılardır: Hərbi Komitə; Beynəlxalq Birləşmiş Qərargah; Birləşmiş Hərbi Komandanlıq.

NATO-nun ali hərbi orqanı Hərbi Komitədir (HK). Bütün üzv-dövlətlərin baş qərargah rəislərindən ibarət olan bu qurum öz fəaliyyətini Şimali Atlantia Şurası və Hərbi Planlaşdırma Komitəsinin, nüvə silahı ilə əlaqədar məsələlərdə isə Nüvə Planlaşdırması Qrupunun rəhbərliyi altında həyata keçirir. Hərbi Komitə NATO məsuliyyəti zonasının birgə müdafiəsinin təminatına aid məsələlər üzrə alyansın rəhbər siyasi orqanlarına məsləhətlərin verilməsinə, o cümlədən NATO ali baş komandanlarına – NATO-nun Avropadakı birləşmiş silahlı qüvvələrinin ali baş komandanına və NATO-nun Atlantikadakı birləşmiş silahlı qüvvələrinin ali baş komandanına göndərilən hərbi məsələlər üzrə ümumi direktivlərin hazırlanmasına cavabdehdir. Qərargah rəisləri ildə iki dəfədən az olmayaraq görüşürlər. Bütün digər hallarda üzv-dövlətlər qərargah rəisləri tərəfindən təyin olunmuş milli hərbi nümayəndələrlə təmsil olunurlar. Komitənin sədri postunu rotasiya prinsipi əsasında, əlifba sırası ilə hər il bir dövlətin nümayəndəsi tutur. O, komitəni digər forumlarda təmsil edir, həmçinin, kütləvi informasiya vasitələri ilə kontakta girmək, NATO və tərəfdaş ölkələrə səfərlər etmək səlahiyyətlərinə də malikdir[51].

Beynəlxalq Birləşmiş Qərargah (BBQ). Hərbi Komitənin işi NATO Beynəlxalq Birləşmiş Qərargahı tərəfindən təmin olunur. Onun əməkdaşları üzv-dövlətlərin silahlı qüvvələrindən Alyansa ezam edilmiş şəxslərdən ibarətdir. BBQ-nin statusu Beynəlxalq Katibliyin statusu ilə eynidir. Lakin o, birbaşa Hərbi Komitəyə tabedir. Hərbi Komitənin icraçı orqanı funksiyasını yerinə yetirən BBQ onun siyasət və qərarlarının həyata keçirilməsinə cavabdehlik daşıyır. Bundan əlavə, BBQ NATO və Hərbi Komitənin qərarları ilə əlaqədar planların hazırlanması, tədqiqat işlərinin aparılması və tövsiyələrin verilməsi ilə də məşğul olur. BBQ həmçinin, Mərkəzi və Şərqi Avropa ölkələri ilə əməkdaşlıq prosesində də aktiv iştirak edir.

1994-cü ilin yanvarında NATO üzvü olan ölkələrin dövlət və hökumət başçılarının irəli

51 Chapter 11: Military organization and struktures. NATO. Handbook, 1998; <http://c.nato.int>.

sürdükləri təşəbbüslər qəbul edildikdən sonra Şimali Atlantika Şurası NATO-nun sərəncamında olan yeni vəzifələrin yerinə yetirilməsi mexanizminin tərkib hissəsinə çevrilən bir sıra əlavə komitə və qruplar yaratmışdır. Birləşmiş Hərbi Komandanlıq (BHK). Bu orqan Alyansın silahlı qüvvələrinə birbaşa rəhbərlik funksiyasını yerinə yetirir. Son illər aparılmış islahatlardan sonra BHK aşağıdakı kimi formalaşdırılmışdır: Şimali Atlantika Müqaviləsində nəzərdə tutulmuş strateji nəzarət zonası (təşkilatın Avropa və Şimali Amerika üzvlərinin ərazisi, Atlantik okeanının Xərçəng tropikindən şimalda yerləşən adaları və Türkiyənin ərazisi) NATO-nun Avropada Birləşmiş Silahlı Qüvvələrinin komandanlığı, Alyansın Atlantikada Birləşmiş Silahlı Qüvvələrinin komandanlığı və Kanada – Amerika Regional Planlaşdırma Qrupu arasında bölünmüşdür[52].

NATO Birləşmiş Silahlı Qüvvələrinin baş komandanları Alyansın məsuliyyət zonasının birgə müdafiəsi üzrə planların hazırlanmasına, tabeçilikdə olan hərbi birləşmələrin tələbatlarının müəyyən olunmasına, onların yerləşdirilməsi və hərbi təlimlərin keçirilməsinə, həmçinin Hərbi Komitəyə göndərilən hərbi məsələlər üzrə direktivlərin hazırlanmasına cavabdehdirlər. Birləşmiş Silahlı Qüvvələr sülh dövründə, habelə böhran və müharibələr vaxtında üzv-dövlətlərin təhlükəsizliyini və ərazi bütövlüyünü təmin etmək funksiyasını həyata keçirir. Hərbi rəhbərlik NATO-nun Hərbi Komitəsinə məxsusdur. NATO-nun Avropada Birləşmiş Silahlı Qüvvələrinin ali baş komandanının qərargahı Belçikanın Mons şəhərində, Atlantikada Birləşmiş Silahlı Qüvvələrinin ali baş komandanının qərargahı isə ABŞ-ın Norfolk şəhərində yerləşir.

NATO-nun strukturu silahlı qüvvələrin təsnifarı ilə tamamlanır. Ümumiyyətlə, Alyansın silahlı qüvvələrini üç kateqoriyaya bölmək olar: – çevik qüvvələr; – əsas qüvvələr; – ehtiyat qüvvələri. Bündan əlavə, NATO strukturuna birbaşa daxil olmayan, lakin fəaliyyətlərini Avroatlantika strategiyasına uyğunlaşdıran bir sıra parlamentar və qeyri-hökumət təşkilatları da mövcuddur.

NATO-nun strukturu siyasi və digər məsləhətləşmələr keçirilməsini təmin edən prosedurlarla, eləcə də üzv-dövlətlərin payçılıq prinsipi əsasında yerinə yetirdiyi mülki və hərbi proqramların birgə maliyyələşdirilməsi sistemilə möhkəmləndirilir. Birgə maliyyələşdirmə prinsipi NATO çərçivəsində öz öhdəliklərini yerinə yetirmək üçün üzv-dövlətlərin silahlı qüvvələrinə zəruri olan əsas texniki vasitələr verilməsində, eləcə də Şimali Atlantika İttifaqının Brüsseldəki mənzil-qərargahının , NATO-nun digər ölkələrdəki mülki və hərbi müəssisələrinin büdcə ehtiyaclarının ödənilməsində də tətbiq olunur. Müvafiq prinsip NATO çərçivəsində əməkdaşlığın bütün aspektlərinə aid edilir.

NATO-nun maliyyə ehtiyatları mülki və hərbi büdcələrin razılaşdırılmış pay iştirakı formuluna və sənədlərin özünütənqid şəklində yoxlanılması prinsipinə uyğun olaraq ayrıca tərtibatı və icrası əsasında bölüşdürülür. Buna görə məsuliyyət mülki və hərbi büdcələr üzrə komitələrin üzərinə qoyulur.

Şimali Atlantika İttifaqında aparılan yenidənqurmanın və NATO üzvü olan ölkələrin hökumətlərinin qarşıya qoyduğu yeni vəzifələrin bu təşkilatın maliyyəsinə və ehtiyatlarına göstərdiyi təsiri nəzərə alaraq, Ehtiyatlar üzrə Baş Şura (EBŞ) yaradılmışdır. Şura üzv-dövlətlərin yüksək vəzifəli nümayəndələrindən ibarətdir. Hazırda Şuranın iclasları Baş katibin infrastruktur, maddi-texniki təchizat və fövqəladə vəziyyətlərdə mülki xidmətlərdən istifadənin planlaşdırılması məsələləri üzrə köməkçisinin sədrliyi ilə keçirilir; Şura hərbi ehtiyatların və prioritetlərin müəyyənləşdirilməsi məsələlərilə məşğul olur. Onun işində həmçinin Hərbi Komitənin nümayəndələri, NATO-nun baş komandanları, hərbi büdcə, infrastruktur və şəxsi heyət üzrə komitələrin nümayəndələri də iştirak edirlər.

1967-ci ildə NATO Armel doktrinasını qəbul etmişdir. Sənədin əsasını ikivahidli siyasi kurs, yəni bir tərəfdən yüksək səviyyədə müdafiə sistemini qurmaq, digər tərəfdən Qərblə Şərq

52 Yenə orada.

arasında olan gərginliyin zəiflədilməsi təşkil edirdi. 1989-cu ilin martında Vyanada ATƏM çərçivəsində NATO-nun üzvləri ilə Varşava Müqaviləsi Təşkilatına daxil olan dövlətlər arasında gələcəyə yeni zəmanət verən danışıqlar başlamışdır. Onun da əsasını Avropada adi silahlı qüvvələrin (AASQ) azaldılması təşkil etmişdir. 1990-cı ilin iyulunda Londonda keçirilən yüksək səviyyəli görüşdə NATO-nun tarixində ilk dəfə olaraq dövlət və hökumət başçıları alyans qarşısında duran yeni sülhməramlı planları, Qərblə Şərq arasında qarşıdurmanın dayandırılmasının zəruriliyini, təhlükəsizlik sahəsində daha ciddi işlərin görülməsini elan etmişdilər.

Ümumiyyətlə, Alyans ölkələrinin dövlət və hökumət başçılarının London sammitində NATO strukturlarının və siyasətinin əsaslı dəyişiklikləri təklif olunmuşdur. Məhz bu dövrdən başlayaraq NATO öz fəaliyyətində keyfiyyətcə yeni bir mərhələyə qədəm qoydu. 1991-ci ilin iyulunda Mərkəzi və Şərqi Avropa ölkələri ilə tərəfdaşlıq haqqında sənəd imzalandı. Bu addım NATO-nun qəbul etməyə hazırlaşdığı yeni strateji konsepsiyanın başlıca konturlarını özündə əks etdirirdi.

NATO bütün Avropada (təbii ki, həm də Şimali Amerikada) təhlükəsizliyin və sabitliyin məsuliyyətini öz üzərinə götürərək 1991-ci ilin noyabrında növbəti Roma zirvə görüşündə yeni strateji konsepsiyasını qəbul etdi. Bu mühüm sənəddə alyansın kollektiv müdafiə qabiliyyəti saxlanılmaqla, dialoq və əməkdaşlıq əsasında təhlükəsizliyin qorunması başlıca məqsəd elan edildi. Mərkəzi və Şərqi Avropa ölkələri ilə əməkdaşlığın qurulması və genişləndirilməsi də adı çəkilən strategiyanın ayrılmaz tərkib hissəsidir. Şimali Atlantika İttifaqının 1991-ci il strategiyasının fərqləndirici əlamətlərindən biri əlavə siyasi və hərbi vasitələr daxil olmaqla təhlükəsizliyin təmin edilməsinə geniş yanaşmanın müəyyənləşməsindən, NATO-nun məqsədlərini bölüşən digər dövlətlərlə əməkdaşlığın vacibliyinin qeyd olunmasından ibarətdir. Bu ümumi yanaşma yeni strateji konsepsiyada mühüm yer tutur və aşağıdakı əsas müddəaları əhatə edirdi: -transatlantik əlaqələrin saxlanması; -münaqişələrin aradan qaldırılması və böhranların tənzimlənməsi; -tərəfdaşlıq, əməkdaşlıq və dialoq; -NATO-nun genişlənməsi; – silahlar üzərində nəzarət, tərksilah və kütləvi qırğın silahlarının yayılmaması[53].

1991-ci il dekabrın 20-də NATO-ya daxil olan dövlətlərin xarici işlər nazirlərinin, altı Mərkəzi və Şərqi Avropa, həmçinin üç Baltikyanı ölkənin nümayəndələrinin iştirakı ilə keçirilmiş iclasda Şimali Atlantika Əməkdaşlıq Şurası (ŞAƏŞ) yaradılmışdır. 1992-ci ilin martında MDB-nin 11 dövləti, aprelində Gürcüstan, iyulunda Albaniya, 1996-cı ilin yanvarında Sloveniya, martında isə Makedoniya ŞAƏŞ-ə qoşulmuşdur. 1992-ci ilin iyununda Şuranın Oslodakı sessiyasından başlayaraq Finlandiya ŞAƏŞ-in iclaslarında müşahidəçi kimi ştirak etməyə başlamışdır. Hal-hazırda ŞAƏŞ-ə 40-dan artıq dövlət daxildir. ŞAƏŞ-in iş planında aşağıdakı məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur: – hava nəqliyyatının idarəedilməsinin hərbi və mülki işlərinin koordinasiyası; – mülki malların istehsalı məqsədilə müdafiə sənayesinin konversiyası; – silahlanma üzərində nəzarət, tərksilah və nüvə silahının yayılması ilə mübarizə; -hərbi tədarük; -hava hücumundan müdafiə; -fövqəladə şəraitdə mülki xidmətlərdən istifadənin planlaşdırılması;

Şura üzvləri, həmçinin NATO-nun bir çox elmi və ekoloji proqramlarında da iştirak edirlər. İlk əvvəl ŞAƏŞ-in iş planına daxil olan müdafiə, o cümlədən hərbi sahədə əməkdaşlıq və təlimlərlə əlaqədar praktiki məsələlər sonralar «Sülh naminə tərəfdaşlıq» proqramının bir hissəsinə çevrilmişdir.

ŞAƏŞ-in 1992-ci ilin martında keçirilən ikinci sessiyasının nəticəsi olaraq onun dialoqun, tərəfdaşlığın və əməkdaşlığın təşkili üzrə ilk İşçi planı dərc edilmişdir. Həmin planda iştirakçı ölkələr arasında münasibətlərin inkişafının ilkin mərhələlərinin bünövrəsi göstərilir və ŞAƏŞ-in əsas diqqət göstərməli olduğu başlıca mövzu və fəaliyyət növlərinin siyahısı verilirdi. Bu plan ŞAƏŞ-in gələcək iş sxemi idi. Şimali Atlantika İttifaqının fəaliyyətinin bütün

53 Выступление Вершбоу от 27 января о стратегической концепции НАТО. Washington File. February 3, 2000.

məsələləri üzrə qərarlar qəbul edilməsini reqlamentləşdirən konsensus qaydaları eyni dərəcədə həm ŞAƏŞ-in, həm də NATO ilə tərəfdaş ölkələr arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi məqsədilə yaradılmış digər orqanların işinə aiddir. Buna görə də ŞAƏŞ-in iş planı müvafiq forumlarda məsləhətləşmələr və müzakirələr yolu ilə yaranır, bütün iştirakçı dövlətlərin ümumi razılığı ilə qurulur.

ŞAƏŞ-in öz iclaslarından başqa, onun Şimali Atlantika Şurasının himayəsi altında daimi sessiyalarında və öz tabeçiliyində olan NATO orqanları çərçivəsində tərəfdaş ölkələrin nümayəndələrilə əməkdaşlıq üzrə müntəzəm görüşlər keçirilir.

Əgər Şimali Atlantika Şurasının səlahiyyətləri Şimali Atlantika Müqaviləsi əsasında NATO-nun üzv-ölkələri arasında müəyyənləşən saziş münasibətlərilə müəyyənləşirsə, Şimali Atlantika Əməkdaşlıq Şurası NATO ilə onun əməkdaşlıq üzrə tərəfdaşları arasında siyasət və təhlükəsizlik sahəsində əməkdaşlığın inkişafı və məsləhətləşmələr keçirilməsi üçün bir forumdur. Belə bir forumun yaradılması haqqında təklif 1991-ci ilin noyabrında qəbul edilmiş Roma bəyannaməsində irəli sürülmüşdür.

«Sülh naminə tərəfdaşlıq» təşəbbüsü ŞAƏŞ çərçivəsində əməkdaşlığı yeni pilləyə qaldırmış və «Sülh naminə tərəfdaşlıq» proqramı üzrə tərəfdaş ölkələrə öz fərdi maraqları və imkanlarına müvafiq şəkildə NATO ilə hərbi sahədə praktik əməkdaşlığı genişləndirmək imkanı yaratmışdır.

«Sülh naminə tərəfdaşlıq» proqramı Şimali Atlantika İttifaqının 1994-cü il yanvarın 10 – 11-də NATO-nun Brüssel görüşündə irəli sürülmüş mühüm təşəbbüsüdür. Proqramda sənədi imzalayan tərəfdaş ölkələrə öz milli dövlətçilik və təhlükəsizlik problemlərinin həllində Şimali Atlantika Müqaviləsi Təşkilatının potensialından istifadə etmək imkanları verilir. Xüsusən tərəfdaş ölkələr: -milli müdafiənin planlaşdırılması və büdcənin formalaşdırılmasında ; -müdafiə qüvvələri üzərində demokratik nəzarətin təmin edilməsində; -milli konstitusiyanın müddəaları nəzərə alınmaqla BMT və ATƏT-in himayəsi altında sülhməramlı hərbi əməliyyatlarda iştirak etməkdə və s. məsələlərdə alyansın köməyinə bel bağlaya bilər.

Avropa – Atlantika Tərəfdaşlıq Şurasının və «Sülh naminə tərəfdaşlıq» proqramının olması NATO-nun son illərdə keçdiyi təkamülün vüsətini göstərir.

Avropa – Atlantika Tərəfdaşlıq Şurası (AATŞ) NATO üzrə müttəfiqlərlə tərəfdaş ölkələr arasında qarşılıqlı əlaqələr və əməkdaşlıq sahəsində bütün fəaliyyət növlərinin hərtərəfli siyasi əsasını təmin edir. AATŞ üzvü olan ölkələr bu forum çərçivəsində təhlükəsizliyə aid müxtəlif məsələlər barəsində, o cümlədən regional münaqişələr, terrorizm, ekoloji problemlər və kütləvi qırğın silahlarının yayılmaması ilə bağlı məsləhətləşmələr aparır. Təbii və texnogen fəlakətlərə dərhal münasibət göstərilməsi üçün Şura çərçivəsində yeni Avropa – Atlantika Əlaqələndirmə Mərkəzi yaradılmışdır. Mərkəz AATŞ coğrafi zonasında təbii fəlakətlər baş verən təqdirdə NATO-nun və tərəfdaş ölkələrin humanitar yardımını əlaqələndirmək məqsədilə BMT ilə birlikdə fəaliyyət göstərir.

1999-cu ilin aprelində Vaşinqtonda keçirilmiş görüşdə NATO-ya üzv olan ölkələr XXI əsrdə təhlükəsizlik sahəsində təhdidlərin qarşısını almaq və imkanları reallaşdırmaq üçün İttifaqın hazırlıq strategiyasını, habelə gələcəkdə onun siyasi və hərbi inkişafının strategiyasını bəyəndilər. Yeniləşmiş strateji konsepsiyada siyasi və hərbi planların istiqamətlərinin sonrakı müfəssəl hazırlığı üçün ümumi göstərişlər öz əksini tapmışdır[54]. Konsepsiyada təsdiq olunur ki, Şimali Atlantika İttifaqının ən mühüm və dəyişməz məqsədi siyasi və hərbi vasitələrlə üzv-dövlətlərin azadlığına və təhlükəsizliyinə təminat verməkdən ibarətdir. Burada demokratik dəyərlər, insan hüquqları və qanunun aliliyi öz təsdiqini tapır, habelə müttəfiqlərin yalnız birgə

54 Burada Şimali Atlantika İttifaqının məqsəd və vəzifələrinə, habelə strateji vəziyyətin inkişafına uyğun olaraq təhlükəsizlik sahəsində təhdidlərə və risklərə cavab verə biləcək perspektivlər nəzərdə tutulmuşdur. (müəllifin qeydi)

müdafiəyə yox, həm də daha geniş miqyasda Şimali Atlantika regionunda sülhün və sabitliyin təmin olunmasına sadiqliyi ifadə edilirdi[55].

Bu gün yəqinliklə deyə bilərik ki, NATO ötən dövr ərzində üzv-dövlətlərin təhlükəsizliyinin təmin olunması missiyasını şərəflə yerinə yetirmişdir.

Alyansın fəaliyyətindəki uğurların başlıca səbəblərindən biri onun demokratik iş prinsipinə malik olmasındadır. NATO-nun qərarları üzv-dövlətlərin müzakirə və məsləhətləşmələrindən sonra konsensus əsasında qəbul olunur. Azad və müstəqil dövlətlərin birliyi kimi bu qurum heç bir müstəqil siyasi funksiya daşımır. Bu isə o deməkdir ki, NATO yalnız bütün üzvlərin razılığı ilə qəbul olunmuş fəaliyyət kursu həyata keçirir.

Şimali Atlantika İttifaqının əsas iş prinsiplərinə ümumi siyasi öhdəliklər və üzv-dövlətlər arasında praktiki əməkdaşlığa meyl daxildir. Onların ümumi təhlükəsizliyi bölünməzdir. Buna görə də təhlükəsizliklə əlaqədar problemlərin həlli zamanı ayrı-ayrı üzv-dövlətlər yalnız öz qüvvəsinə və iqtisadi ehtiyatlarına bel bağlamalı olmur. Amma Şimali Atlantika İttifaqında elə bir ölkə yoxdur ki, öz xalqı qarşısındakı öhdəliklərini yerinə yetirmək hüququndan imtina etmiş olsun. Onların hamısı əvvəlkitək öz müdafiəsinə görə məsuliyyət daşıyır. Alyans üzv-dövlətlərə milli təhlükəsizliklə bağlı həyati əhəmiyyətli vəzifələrin həllində imkanlarını genişləndirməyə şərait yaradır. Nəticədə, şərait və nisbi hərbi potensial fərqlərinə baxmayaraq, onlarda bərabər təhlükəsizlik hissi yaranır ki, bu da ümumi sabitliyi möhkəmləndirir.

Birgə qərarlar qəbul edilməsi prosesini konsensus və ümumi razılıqla şərtləndirən Şimali Atlantika İttifaqının üzv-dövlətləri hər bir ölkənin fərdi təcrübəsi və nöqteyi-nəzərilə hesablaşırlar. Həm də bu zaman onlar lazım gəldikdə tez və qətiyyətlə birgə hərəkət etməyə imkan verən mexanizm və üsullardan istifadə edirlər. İnformasiya mübadiləsi və gündəlik birgə məsləhətləşmələr təcrübəsi hökumətlərə, əgər şərait tələb edirsə, ümumi siyasət üzrə razılıq əldə olunması məqsədilə dərhal birgə görüş keçirmək imkanı verir. Özü də çox vaxt bu və ya digər iştirakçını nəyin narahat etdiyi əvvəlcədən məlum olur. Lazım gəldikdə onların arasındakı fikir ixtilaflarını aradan qaldırmağa səy göstərilir ki, bütün üzv-dövlətlərin hökumətlərinin dəstəklədikləri nüfuzlu qərarlarla birgə səyləri möhkəmləndirmək mümkün olsun. Bu cür qərarların qəbul edilməsi bütün iştirakçı ölkələrin həmin qərarı tam həcmdə yerinə yetirmək qətiyyətini ifadə edir. Bununla da siyasi cəhətdən çətin qərarlar, yaxud öhdəlikləri yerinə yetirmək üçün vəsait almağa rəqabət aparan tələblərlə əlaqədar qərarlar əlavə qüvvə kəsb edir və daha sanballı olur.

NATO-nun üzvü olan bütün ölkələr Şimali Atlantika İttifaqı çərçivəsində siyasi əməkdaşlığın bərabərhüquqlu iştirakçılarıdır və Şimali Atlantika Müqaviləsi üzrə bərabər öhdəliklərə malikdirlər. Onların arasında həmin Müqavilənin 5-ci maddəsi üzrə NATO ölkələrinin qəbul etdiyi qarşılıqlı öhdəliklər mühüm əhəmiyyət kəsb edir. Bu öhdəliklər onların təhlükəsizliyinin bölünməzliyini ifadə edir. Bu isə o deməkdir ki, həmin ölkələrdən birinə və ya bir neçəsinə hücum bütövlükdə NATO-ya hücumdur.

Müstəqil suveren dövlətlərin siyasətinin hazırlanması və həyata keçirilməsi tələb edir ki, təşkilata daxil olan bütün ölkələrin hökumətləri bir-birinin ümumi siyasəti və niyyətləri barədə hərtərəfli informasiya alsınlar, eləcə də bu ölkələrin öz siyasi xəttini və planlarını hazırlaması zamanı əldə rəhbər tutduqları fikirlər barədə tam məlumat olsun. Bununla əlaqədar olaraq, siyasətin işlənməsi mərhələsində, yəni milli səviyyədə qərarlar qəbul edilənədək müntəzəm siyasi məsləhətləşmələrin keçirilməsi zərurəti ortaya çıxır. NATO-da siyasi məsləhətləşmələrin sistematik keçirilməsinə 1949-cu ilin sentyabrından başlanılmışdır. O vaxt Şimali Atlantika Şurası, Şimali Atlantika Müqaviləsi qüvvəyə mindikdən az sonra ilk dəfə olaraq öz sessiyasına toplaşmışdı. Həmin vaxtdan bu proses qüvvə toplamaqdadır və yeni şərait nəzərə alınmaqla dəyişikliyə məruz qalır. Siyasi məsləhətləşmələrin keçirilməsi üçün əsas forum Şimali Atlantika Şurasıdır. Onun sessiyaları minimum formallıqlarla əlaqədardır və açıq xarakter

55 Генеральный секретарь НАТО Робертсон о новой повестке дня Альянса. Washington File. July 26, 2000.

daşıyır. Şuranın sessiyalarına Baş katib sədrlik edir. Buna görə də Baş katib Şurada keçirilən müzakirələrdə mühüm rol oynayır və ayrı-ayrı ölkələrin hökumətləri, eləcə də ictimaiyyətlə münasibətlərdə Şuranın əsas nümayəndəsi kimi çıxış edir.

Digər forumlarda da müntəzəm məsləhətləşmələr aparılır. Bu forumlar öz səlahiyyətlərini Şimali Atlantika Şurasından alır. Müxtəlif səviyyələrdə Siyasi Komitə, Regional Problemlər üzrə Ekspert Qrupu, xüsusi siyasi işçi qruplar, Atlantika Siyasəti Məsələləri üzrə Məsləhətləşmə Qrupu və digər xüsusi komitələr üzv-ölkələrin hökumətləri arasında siyasi məsləhətləşmələrin keçirilməsinə bilavasitə kömək göstərirlər.

NATO üzvü olan ölkələrin siyasi məsləhətləşmələri Şimali Atlantika Müqaviləsinin fəaliyyət zonasında baş verən hadisələrlə məhdudlaşmır. Bu müqavilənin təsirinin yayıldığı coğrafi regionun hüdudlarından kənarda baş verən hadisələr də NATO üçün əhəmiyyətli ola bilər. Buna görə də NATO üzvü olan ölkələrin bu hadisələrlə əlaqədar məsləhətləşmələr keçirməsi də təəccüblü deyil.

Bu cür vəziyyətlərdə NATO Şimali Atlantika Alyansı kimi, hadisələrdə bilavasitə iştirak etməyə də bilər. Lakin birgə məsləhətləşmələrin zəngin təcrübəsi və üzv-dövlətlərin ümumi maraqlarına toxunan siyasi hadisələrə kollektiv reaksiya göstərmək hazırlığı həmin ölkələrə, lazım gəldikdə, ümumi prosedurlara müvafiq şəkildə hərəkət etmək, müdafiə sahəsində birgə tədbirlər keçirmək və ümumi infrastrukturdan istifadə etmək imkanı verir.

Zəruri intensiv məsləhətləşmələrin keçirilməsi üçün NATO-nun əsas forumları Hərbi Komitədən dəstək alan Hərbi Planlaşdırma Şurası və Komitəsi, eləcə də Siyasi və digər komitələrin Şurasıdır. Müvafiq təcrübə və prosedurlar Şimali Atlantika İttifaqının böhranları aradan qaldırmaq tədbirlərinə daxildir. Bu prosesin həyata keçirilməsini təmin edən, rabitə sistemi də daxil olmaqla, texniki vasitələr fasiləsiz işləyən NATO-nun Operativ Mərkəzi tərəfindən verilir. NATO-nun üzvü olan dövlətlərin paytaxtları və baş komandanları ilə birlikdə böhranların aradan qaldırılması üsulları üzrə təlimlər keçirilir.

Hazırda bu qurum həm ABŞ-ın yeniləşən strategiyasında, həm də dünyanın dəyişən siyasi mənzərəsində xeyli fərqli missiya daşımaq zərurəti ilə qarşı-qarşıya qalmışdır[56]. Eyni zamanda, NATO sülhün qorunması və münaqişələrin aradan qaldırılması kimi yeni vəzifələrin həyata keçirilməsini öz üzərinə götürdükcə, təşkilatın gündəliyinə daxil olan məsələlər getdikcə daha da mürəkkəbləşməkdədir. Və o da aydındır ki, yeni şəraitdə ikiqütblü dünyadan, yaxud da böyük ölkələr arasında qüvvələr nisbətindən söhbət gedə bilməz. Deməli, dünya nizamının saxlanması funksiyasını yerinə yetirməyə qadir olan yeganə qüvvə də məhz NATO-dur.

## Summary

The North Atlantic Treaty Organisation (NATO) provides the structure which enables the goals of the Alliance to be implemented. It is an intergovernmental organisation in which member countries retain their full sovereignty and independence. The Organisation provides the forum in which they consult together on any issues they may choose to raise and take decisions on political and military matters affecting their security. It provides the structures needed to facilitate consultation and cooperation between them, in political, military and economic as well as scientific and other non-military fields.



56 Генеральный секретарь НАТО о Европейской составляющей безопасности и обороны и трансатлантическом оборонном сотрудничестве. Washington File. February 2, 2001.

## *Международный контроль над вооружением: Начало процесса*

**Евгений Алиев**[57]*

Конец второго тысячелетия ознаменовался существенными изменениями в мире, которые кардинальным образом трансформировали военно-политическую обстановку. Распад Варшавского Договора, коллапс супердержавы СССР, расширение НАТО, формирование однополюсного миропорядка, глобализм в политике и экономике – вот те события, которые будут определять ход истории в первую декаду двадцать первого века.

Столь масштабные изменения в мире не могли не вызвать ряд негативных явлений таких как территориальные конфликты, экономические и межнациональные проблемы. Однако все эти процессы проходили и проходят на локальном, региональном уровне. То что переходный период прошел без глобальных общемировых и общеевропейских потрясений, во многом определялось фактором наличия международных военно-политических договоров по контролю над вооружением.

Государства «восточного» и «западного» блоков, противостоявшие друг другу в течении более сорока лет, вооруженные до зубов и вовлеченные в непрекращающийся процесс гонки вооружений, смогли осознать бесперспективность и пагубность этого пути. Результатом этого понимания стал ряд международных военно-политических соглашений в области контроля над вооружениями, которые предусматривали в том числе и режим осуществления верификации (контроля). Определяющими для Европы стали следующие соглашения:

– Договор о системах ПРО (противоракетной обороны) – заключен СССР и США в 1972 году.

– Договор по ракетам средней и меньшей дальности (РСМД ) – договор между СССР и США, вступивший в силу 1 июня 1988 г.;

– Договор о СНВ-1 (ограничении стратегических наступательных вооружений) –

57 Начальник отдела редакционно-издательской деятельности и научной информации Военно-Научного Центра Министерства Обороны Азербайджанской Республики, полковник-лейтенант, кандидат физико-математических наук.

подписан СССР и США в июле 1991 г., вступил в силу в декабре 1994 года. В декабре 1995 г. был подписан Договор СНВ-2, значительно продвинувший вперед процесс сокращения стратегических вооружений. В связи с недавним выходом США из Договора по ПРО, в настоящее время в этой области идут активные процессы, которые могут привести к значительным изменениям, имеющим далеко идущие последствия для всего человечества. (Детальный анализ происходящих процессов в области контроля стратегических наступательных вооружений и противоракетных оборонительных систем будет предложен вниманию читателей в отдельной статье в одном из следующих выпусков журнала).

– Венский Документ 1990 года переговоров по мерам укрепления доверия и безопасности. Этот документ, обязательный в политическом плане, содержал значительные меры по транспарентности, которые сопровождались соответствующими формами верификации. В Венском Документе 1992, 1994 и 1999 годов все эти моменты нашли свое дальнейшее развитие.

Отметим, что в этот период был подписан еще ряд других соглашений (Договор по «Открытому небу», Конвенция по запрещению химического оружия; Конвенция по негуманным видам оружия; Протоколы по противопехотным минам; Договор по нераспространению ядерного оружия; Договор о всеобщем запрещении ядерных испытаний; Документ ОБСЕ по легкому и стрелковому оружию и др.), многие из них уже начали действовать.

На сегодняшний день самым масштабным соглашением в области разоружения и контроля над вооружением является Договор об Обычных Вооруженных Силах в Европе (Договор об ОВСЕ). В основе Договора, имеющего бессрочный характер, лежит ограничение и, при необходимости, сокращение каждым государством-участником вооружения и военной техники по пяти категориям (боевые танки, боевые бронированные машины, артиллерийские системы калибра свыше 100 мм., боевые самолеты и ударные вертолеты). Договор был подписан 19 ноября 1990 года. Зона действия Договора об ОВСЕ охватывает значительную европейскую территорию от Атлантики до Уральских гор. Было предусмотрено деление зоны применения Договора об ОВСЕ на районы и для каждого района устанавливались свои количественные ограничения по вооружению и технике (детально с этими цифрами можно ознакомиться из текста Договора об ОВСЕ, который можно найти на веб-сайте ОБСЕ: www.osce.org). Следует отметить, что Азербайджанская Республика, как и весь Закавказский регион, согласно Договора находятся в так называемой «фланговой» зоне, с которой связано множество дополнительных ограничительных факторов.

Государства-участники Договора об ОВСЕ (ДОВСЕ) обязаны ежегодно обмениваться подробной информацией о своих национальных вооруженных силах в районе действия ДОВСЕ. Данный Договор также обязывает принимать инспекции, проводимые другими государствами-участниками Договора, в местах размещения военных объектов. Конкретная цель этих инспекций состоит в том, чтобы государства могли убедиться в том, что другие стороны выполняют положения Договора, одновременно это содействует установлению более высокого уровня открытости в Европе.

Изначально в ДОВСЕ были предусмотрены ограничения обычных вооружений и техники для каждой из групп государств: семь государств Варшавского Договора и 16 государств-участников НАТО. При этом были установлены максимальные коллективные уровни вооружений для каждой из двух групп государств:

**Таблица I.** Установленные Договором об ОВСЕ максимальные разрешенные уровни наличия вооружений.

|  | Вооружение | Максимальное общее количество в зоне действия Договора | Максимальное количество в каждой группе государств | Максимальное количество у одного государства |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
|  | Боевые танки (БТ) | 40000 | 20000 из них не более 16500 ед. в регулярных войсках | 13300 |
|  | Боевые бронированные машины (ББМ) | 60000 | 30000 не более 16500 ед. в регулярных войсках | 20000 |
|  | Артиллерия калибра 100 и более мм. (Арт) | 40000 | 20000 не более 17000 ед. в регулярных войсках | 13700 |
|  | Боевые самолеты (БС) | 13600 | 6800 | 5150 |
| | Ударные вертолеты (УВ) | 4000 | 2000 | 1500 |

**В результате переговоров СССР со своими союзниками по Варшавскому Договору для СССР были определены следующие максимальные уровни:**

БТ – 13150 ед. (из них 2650 ед. на складах);
ББМ – 20000 ед. (из них 2080 ед. на складах);
Арт – 13175 ед. (из них 2350 ед. на складах);
БС – 5150 ед;
УВ – 1500 ед.

Государствам для выполнения своих обязательств по Договору предстояло провести сокращение определенного количества ограничиваемых Договором вооружений и техники (ОДВТ).

**Таблица II.** Заявленные НАТО и Варшавским Договором уровни наличия ОДВТ и нормы их сокращения.

| | ОДВТ | Установленные максимальные уровни в каждой группе государств | НАТО | | Варшавский Договор | |
|---|---|---|---|---|---|---|
| | | | Заявлено о наличии на 19.11.1990 г | Заявлено к сокра-щению* | Заявлено о наличии на 19.11.1990 г | Заявлено к сокра-щению |
|  | БТ | 20000 | 25091 | 5949 | 33191 | 13191 |
|  | ББМ | 30000 | 34453 | 4631 | 42949 | 12949 |
|  | Арт | 20000 | 20620 | 2334 | 26953 | 6533 |
|  | БС | 6800 | 5939 | 0 | 8372 | 1572 |
|  | УВ | 2000 | 1736 | 0 | 1701 | 0 |

* - Страны НАТО решили установить свои уровни вооружений ниже разрешенных.

Количественные данные по вооружению и техники для каждого государства позволяют нам судить об уровне противостояния на тот период ведущих государств мира.

**Таблица III.** Заявленные национальные уровни наличия ОДВТ на 19 ноября 1990 г.

| Страна | БТ | ББМ | Арт | БС | УВ |
|---|---|---|---|---|---|
| **Установленные максимальные уровни в** | 20000 | 30000 | 20000 | 6800 | 2000 |
| **Установленные максимальные** | 13300 | 20000 | 13700 | 5150 | 1500 |
| **Варшавский Договор** | | | | | |
| **СССР** | 20694 | 29348 | 13828 | 6445 | 1330 |
| **Болгария** | 2416 | 2010 | 2474 | 387 | 44 |
| **Чехословакия** | 3035 | 4359 | 3485 | 369 | 56 |
| **Венгрия** | 1345 | 1720 | 1047 | 110 | 39 |
| **Польша** | 2850 | 2337 | 2300 | 654 | 128 |
